31 dekabr 2019-cu il tarixinə

**_ASC Xalq Bank və onun törəmə müəssisələrinin_**

*Konsolidə edilmiş maliyyə hesabatları*
*və Müstəqil auditor rəyi*

**Xalq Bank Açıq Səhmdar Cəmiyyəti**

## Mündəricat

***Konsolidə edilmiş maliyyə hesabatları***


Rəhbərliyin məsuliyyəti haqqında hesabat ... 1
Müstəqil auditorun rəyi ... 2
Konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabat ... 5
Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat ... 6
Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat ... 7
Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat ... 8


***Konsolidə edilmiş maliyyə hesabatlarına qeydlər***


1. Ümumi məlumat ... 10
2. Təqdimatın əsasları ... 11
3. Mühüm mühasibat uçotu siyasətlərinin icmalı ... 11
4. Yeni və ya yenidən baxılmış standartlar və şərhlərin qəbul olunması ... 20
5. Xalis faiz gəliri ... 25
6. Kredit zərəri xərci və digər dəyərsizləşmə və ehtiyatlar ... 25
7. Haqq və komissiya gəliri və xərcləri ... 26
8. Xarici valyuta əməliyyatları üzrə xalis gəlir ... 27
9. Qiymətli metal əməliyyatları üzrə xalis gəlir / (zərər) ... 27
10. İşçilər üzrə xərclər, ümumi və inzibati xərclər ... 27
11. Mənfəət vergisi ... 28
12. Hər səhm üzrə gəlir ... 29
13. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ... 29
14. Kredit təşkilatlarından alınacaq vəsaitlər ... 30
15. Müştərilərə verilmiş kreditlər ... 32
16. İnvestisiya qiymətli kağızları ... 37
17. Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər ... 40
18. İnvestisiya əmlakı ... 41
19. Qeyri-maddi aktivlər ... 41
20. Digər aktivlər ... 42
21. Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər ... 42
22. Müştəri hesabları ... 43
23. Digər öhdəliklər ... 43
24. Səhmdar kapitalı ... 44
25. Təəhhüdlər və potensial öhdəliklər ... 44
26. Əlaqəli tərəflərlə əməliyyatlar ... 46
27. Maliyyə alətlərinin ədalətli dəyəri ... 48
28. Tənzimləyici məsələlər ... 50
29. Kapitalın idarə olunması ... 50
30. Riskin idarə olunması siyasətləri ... 51
31. Hesabat tarixindən sonra baş vermiş hadisələr ... 66

Müstəqil auditorların rəyinin 2-4 cü səhifələrdə təqdim olunan və müstəqil auditorların məsuliyyəti ilə əlaqəli şəkildə oxunması tələb olunan bu hesabat Xalq Bank Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Qrup") konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəhbərliyin məsuliyyətlərini müvafiq olaraq müstəqil auditorların məsuliyyətlərindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Qrupun 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda baş verən dəyişiklikləri düzgün əks etdirən, habelə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar olaraq rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Məntiqli və məqsədəmüvafiq qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Konsolidə edilmiş maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların BMHS-ın tələblərinə uyğunluğuna; və
- Qrupun proqnozlaşdırıla bilən dövr ərzində öz fəaliyyətini davam edəcəyini güman etmək mümkün olmayana qədər konsolidə edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının BMHS tələblərinə uyğunluğunu təmin etmək məqsədilə Qrupun maliyyə vəziyyəti barədə hər zaman kifayət qədər dəqiq məlumat verən mühasibat qeydlərinin müvafiq qaydada aparılmasına;
- Normativ mühasibat qeydlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılmasına;
- Qrupun aktivlərinin mühafizəsini təmin edə biləcək məqsədəmüvafiq tədbirlərin görülməsinə; və
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2019-cu il tarixinə bitən il üzrə konsolidə edilmiş maliyyə hesabatları 30 aprel 2020-ci il tarixində buraxılmaq üçün Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

30 aprel 2020-ci il tarixində buraxılmaq üçün təsdiq olunmuş və imzalanmışdır.

İdarə heyətinin sədri
Cənab Elxan Ağayev

Baş mühasib
Xanım Tamilla Əsədova

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "XALQ" BANKI Xalq Bank OPEN JOINT-STOCK COMPANY XALQ BANK AZERBAIJAN REPUBLIC

Crowe

Baltic Caspian Audit LLC
*Member of Crowe Global*

Oscar Business Center 3rd floor
Tbilisi avenue 3001, Baku AZ1000
Azerbaijan
Tel: +99455 200 20 77
www.crowe.az

# *Müstəqil auditorun hesabatı*

"Xalq Bank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə dair hesabat

### *Rəy*

Biz Xalq Bank Açıq Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin (Qrup) 31 dekabr 2019-cu il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatından, konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabatından, konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixinə Qrupun maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "*Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti*" bölməsində təsvir edilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

## Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və Audit Komitəsinin məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupun ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi Qrupun maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Baltic Caspian Audit LLC is a member of Crowe Global. Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit LLC and its affiliates are not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member. © 2020 Baltic Caspian Audit*

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidə edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

- Konsolidə edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Qrupdakı müəssisələrin və ya fəaliyyət növlərinə dair yetərincə müvafiq audit sübutlarını əldə edirik. Biz qrup auditinin idarə olunmasına, nəzarət edilməsinə və aparılmasına görə məsuliyyət daşıyırıq. Audit rəyimizə görə məsuliyyət yalnız özümüzün üzərində qalır.

*Baltic Caspian Audit LLC is a member of Crowe Global. Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit LLC and its affiliates are not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member. © 2020 Baltic Caspian Audit*

Biz Audit Komitəsinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Bu müstəqil auditor hesabatı ilə nəticələnən audit tapşırığı üzrə tərəfdaş Samir Əsədullayev.

Samir Əsədullayev
*Lisenziyalı auditor (Lisenziya nö. 072786)*
*Baltic Caspian Audit MMC*

30 aprel 2020-ci il
Bakı, Azərbaycan Respublikası

“Baltik Kaspian AUDİT” MMC
AUDIT
“Baltic Caspian AUDIT” LLC

*Baltic Caspian Audit LLC is a member of Crowe Global. Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit LLC and its affiliates are not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member. © 2020 Baltic Caspian Audit*

## Xalq Bank Açıq Səhmdar Cəmiyyəti

**31 dekabr 2019-cu il tarixinə bitən il üzrə konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabat**
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|---|
| Faiz gəliri | 5 | 110,720,135 | 109,399,694 |
| Faiz xərci | 5 | (19,626,342) | (23,158,018) |
| **Xalis faiz gəliri** | | **91,093,793** | **86,241,676** |
| Faiz hesablanan aktivlər üzrə kredit zərərləri ehtiyat | 6 | (27,750,133) | (24,893,112) |
| **Dəyərsizləşmə zərərləri üçün ehtiyatdan sonra xalis faiz gəliri** | | **63,343,660** | **61,348,564** |
| Xalis haqq və komissiya gəliri | 7 | 5,300,948 | 4,377,772 |
| Xarici valyua əməliyyatları üzrə xalis gəlir | 8 | 6,873,521 | 1,888,606 |
| Qiymətli metal əməliyyatları üzrə xalis (zərər) / gəlir | 9 | 2,621,882 | (211,205) |
| İnvestısiya əmlakının yenidən qiymətləndirilməsİndən yaranan gəlir | 19 | 277,791 | 201,940 |
| Faiz hesablanmayan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatın bərpası / (ehtiyat) | 20 | 258,801 | 3,039,742 |
| Digər gəlirlər | | 1,873,524 | 954,049 |
| **Qeyri-faiz gəlirləri** | | **17,206,467** | **10,250,904** |
| İşçilər üzrə xərclər | 10 | (24,201,913) | (21,555,829) |
| Ümumi və inzibati xərclər | 10 | (13,361,147) | (13,571,508) |
| Köhnəlmə və amortizasiya | 18 | (6,230,398) | (4,945,635) |
| Zəmanətlər və digər öhdəliklər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatın bərpası / (ehtiyat) | 5 | 21,553 | 53,171 |
| **Qeyri-faiz xərcləri** | | **(43,771,905)** | **(40,019,801)** |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | | **36,778,222** | **31,579,667** |
| Mənfəət vergisi xərci | 11 | (7,468,005) | (6,353,987) |
| **İl üzrə xalis mənfəət** | | **29,310,217** | **25,225,680** |
| Mənfəət aiddir: | | | |
| - Bankın səhmdarları | | 29,304,206 | 25,221,584 |
| - Nəzarətdən kənar paylar | | 6,011 | 4,096 |
| | | 29,310,217 | 25,225,680 |
| HƏR SƏHM ÜZRƏ GƏLİR | | | |
| *Əsas və azaldılmış (AZN)* | 12 | 8.072 | 6.948 |

Buraxılmaq üçün 30 aprel 2020-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır.

İdarə heyətinin sədri
Cənab Elxan Ağayev

Baş mühasib
Xanım Tamilla Əsədova

## Xalq Bank Açıq Səhmdar Cəmiyyəti

### 31 dekabr 2019-cu il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13 | 363,973,758 | 278,209,512 |
| Qiymətli metallar | | 17,515,867 | 14,989,411 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 14 | 36,385,755 | 66,439,965 |
| Müştərilərə verilmiş kreditlər | 15 | 1,766,799,111 | 1,332,211,034 |
| İnvestisiya qiymətli kağızları | 16 | 110,161,296 | 165,521,670 |
| Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər | 17 | 69,365,695 | 67,041,774 |
| İnvestisiya əmlakı | 18 | 7,315,000 | 7,027,246 |
| Qeyri-maddi aktivlər | 19 | 2,034,792 | 1,511,655 |
| Digər aktivlər | 20 | 56,927,395 | 58,796,261 |
| **Cəmi aktivlər** | | **2,430,478,669** | **1,991,748,528** |
| **Öhdəliklər** | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 21 | 383,805,333 | 376,157,633 |
| Müştəri hesabları | 22 | 1,636,351,672 | 1,335,034,786 |
| Cari mənfəət vergisi öhdəliyi | | 306,531 | 4,159,131 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 11 | 1,144,632 | 2,387,920 |
| Digər öhdəliklər | 23 | 12,694,166 | 7,149,274 |
| **Cəmi öhdəliklər** | | **2,034,302,334** | **1,724,888,744** |
| **Kapital** | | | |
| Səhmdar kapitalı | 24 | 364,772,544 | 225,078,600 |
| Bölüşdürülməmiş mənfəət | | 31,294,523 | 41,671,137 |
| Nəzarətdən kənar kapital | | 109,268 | 110,047 |
| **Cəmi kapital** | | **396,176,335** | **266,859,784** |
| **Cəmi öhdəliklər və kapital** | | **2,430,478,669** | **1,991,748,528** |

Buraxılmaq üçün 30 aprel 2020-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "XALQ BANKI" Xalq Bank AZERBAIJAN REPUBLIC OPEN JOINT-STOCK COMPANY "XALQ BANK"

İdarə Heyətinin sədri
Cənab Elxan Ağayev

Baş mühasib
Xanım Tamilla Əsədova

## 31 dekabr 2019-cu il tarixinə bitən il üzrə kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat
***(Azərbaycan manatı ilə)***

| | Səhmdar kapitalı | Bölüşdürülmə -miş mənfəət | Nəzarətdən kənar kapital | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2018** | **225,078,600** | **22,439,548** | **108,711** | **247,626,859** |
| Bankın səhmdarlarına dividendlər | - | (5,989,995) | - | (5,989,995) |
| İl üzrə cəmi mənfəət | - | 25,221,584 | 4,096 | 25,225,680 |
| Törəmə müəssisədəki mülkiyyət payında dəyişiklik | - | - | (2,760) | (2,760) |
| **31 dekabr 2018** | **225,078,600** | **41,671,137** | **110,047** | **266,859,784** |
| Səhmdar kapitalın artırılması | 107,999,784 | - | - | 107,999,784 |
| Bölüşdürülməmiş mənfəətin kapitallaşdırılması | 31,694,160 | (31,694,160) | - | - |
| Bankın səhmdarlarına dividendlər | - | (7,986,660) | - | (7,986,660) |
| İl üzrə cəmi mənfəət | - | 29,304,206 | 6,011 | 29,310,217 |
| Törəmə müəssisədəki mülkiyyət payında dəyişiklik | - | - | (6,790) | (6,790) |
| **31 dekabr 2019** | **364,772,544** | **31,294,523** | **109,268** | **396,176,335** |

Buraxılmaq üçün 30 aprel 2020-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır.

İdarə heyətinin sədri
Cənab Elxan Ağayev

Baş mühasib
Xanım Tamilla Əsədova

10 - 66-ci səhifələrdə izah olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## 31 dekabr 2019-cu il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 36,778,222 | 31,579,667 |
| Düzəlişlər: | | | |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat | 6 | 27,750,133 | 24,893,112 |
| Zəmanətlər və digər öhdəliklər üzrə (ehtiyatın bərpası) / ehtiyat | | (21,553) | (74,534) |
| Faiz hesablanmayan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün (ehtiyatın bərpası) / ehtiyat | | (258,801) | (3,039,742) |
| Xarici valyutanın mübadilə məzənnələrində dəyişikliklərdən yaranan xalis realizə olunmamış (gəlir) / zərər | | (4,086,781) | 297,371 |
| Köhnəlmə və amortizasiya | 18 | 6,230,710 | 4,945,635 |
| İnvestisiya əmlakının yenidən qiymətləndirilməsi üzrə gəlir | 19 | (277,791) | (201,940) |
| Əmlak və avadanlığın silinməsindən gəlir | | (204,533) | (40,170) |
| Faiz hesablamalarında dəyişiklik, xalis | | (7,881,053) | (1,233,190) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan nağd pul vəsaiti hərəkətləri** | | **58,028,553** | **57,126,209** |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərində (artma) / azalma: | | | |
| Qiymətli metallar | | (2,526,456) | 316,055 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 30,190,800 | (3,869,207) |
| Müştərilərə verilmiş kreditlər | | (454,041,843) | (84,513,085) |
| Forfeytinq | | - | 4,589,966 |
| Digər aktivlər | | 2,126,345 | (29,270,022) |
| Əməliyyat öhdəliklərində artma / (azalma): | | | |
| Banklara və digər hökumət təşkilatlarına ödəniləcək vəsaitlər | | 7,642,577 | 19,489,573 |
| Müştəri hesabları | | 301,166,407 | 151,566,731 |
| Digər öhdəliklər | | 1,013,583 | (476,775) |
| **Vergidən əvvəl əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin (məxarici) / mədaxili** | | **(56,400,034)** | **114,959,445** |
| Ödənilmiş mənfəət vergisi | | (12,563,893) | (5,360,822) |
| **Əməliyyat fəaliyyətindən yaranan xalis nağd pul vəsaitlərinin (məxarici) / mədaxili** | | **(68,963,927)** | **109,598,623** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | 18 | (4,527,623) | (3,238,673) |
| Əmlak və avadanlığın satılmasından gəlir | | 207,250 | 83,600 |
| İnvestisiya qiymətli kağızlarının satılması və geri alınması | | 54,965,394 | 70,971,075 |
| İnvestisiya əmlakının təmiri | | (9,963) | - |
| Törəmə müəssisənin alınması | | (6,790) | (2,760) |
| **İnvestisiya fəaliyyətlərindən yaranan xalis nağd pul vəsaitlərinin mədaxili / (məxarici)** | | **50,628,268** | **67,813,242** |

10 - 66-cı səhifələrdə izah olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

**31 dekabr 2019-cu il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat (davamı)**
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|---|
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Bankın səhmdarlarına ödənilmiş dividendlər | | (7,986,660) | (5,989,995) |
| Səhmdar kapitalın artırılması | | 107,999,784 | - |
| **Maliyyə əməliyyatlarından yaranan xalis nağd pul vəsaitlərinin məxarici** | | **100,013,124** | **(5,989,995)** |
| Xarici valyutanın mübadilə məzənnəsinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzərində təsiri | | 4,086,781 | (297,371) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma | | 85,764,246 | 171,124,499 |
| İlin əvvəlində pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 278,209,512 | 107,085,013 |
| **İlin sonunda pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **13** | **363,973,758** | **278,209,512** |

31 dekabr 2019-cu il tarixinə bitən il üzrə Qrup tərəfindən nağd pulla ödənilmiş və əldə olunmuş faiz məbləği müvafiq olaraq 19,470,740 AZN və 102,683,480 AZN təşkil etmişdir.

31 dekabr 2018-ci il tarixinə bitən il üzrə Qrup tərəfindən nağd pulla ödənilmiş və əldə olunmuş faiz məbləği müvafiq olaraq 23,121,179 AZN və 108,129,665 AZN təşkil etmişdir.

Buraxılmaq üçün 30 aprel 2020-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır.

İdarə heyətinin sədri
Cənab Elxan Ağayev

Baş mühasib
Xanım Tamilla Əsədova

## 1. Ümumi məlumat

Xalq Bank 24 dekabr 2004-cü ildə təsis haqqında müqaviləyə uyğun olaraq səhmdar cəmiyyət kimi yaradılmış və 27 dekabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qeydiyyata alınmışdır. Bankın dövlət qeydiyyatından keçmiş ünvanı aşağıdakı kimidir: İnşaatçılar prospekti 22L, AZ1006, Bakı, Azərbaycan. Bankın fəaliyyəti Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən tənzimlənir və Bank 246 saylı ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir. 31 dekabr 2019 və 2018-ci il tarixlərinə Bankın Azərbaycanda müvafiq olaraq 30 və 29 filialı olmuşdur. Bankın əsas biznes fəaliyyətinə kommersiya fəaliyyətləri, qiymətli kağızların, xarici valyutaların alqı-satqısı, kreditlərin və zəmanətlərin verilməsi daxildir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Bankın işçilərinin sayı müvafiq olaraq 693 və 628 nəfər olmuşdur.

Bank Bank qrupunun ("Qrup") ana şirkətidir və bu maliyyə hesabatlarında konsolidə edilmiş aşağıdakı müəssisələrdən ibarətdir:

| | | Bankın təsisçi payı / səsvermə hüquqları | | |
|---|---|---|---|---|
| **Adı** | **Qeydiyyata alındığı ölkə** | **2019** | **2018** | **Fəaliyyət növü** |
| *Xalq Kapital MMC* | *Azərbaycan Respublikası* | 100 % | 100 % | *Qiymətli kağızlarla bazar əməliyyatları* |
| *Bakı Ayaqqabı -2 ASC* | *Azərbaycan Respublikası* | 98.41% | 98.36% | *Dormant* |

"Xalq Kapital" MMC 17 avqust 2007-ci il tarixdə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş məhdud məsuliyyətli cəmiyyətdir. Şirkətin əsas fəaliyyəti qiymətli kağızlarla əməliyyatlar, broker və diler əməliyyatlarıdır.

"Bakı Ayaqqabı-2" ASC 1980-ci ilin dekabrında Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş səhmdar cəmiyyətdir. Şirkətin əsas fəaliyyəti ayaqqabı istehsalı olmuşdur. Şirkət 1999-cu ilin fəaliyyətini dayandırmışdır. Qrup Şirkətin kapitalında nəzarət paketini əldə edərək, əsas məqsədi onu investisiya əmlakı kimi istifadə etmək olmuşdur. Qrup rəhbərliyinin Şirkətlə bağlı planlarında qeyri-müəyyənlik mövcuddur.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə aşağıdakı səhmdarlar Bankın kapitalında buraxılmış paylara sahib olmuşlar:

| | **31 dekabr 2019** | **31 dekabr 2018** |
|---|---|---|
| | **Təsisçi payı, %** | **Təsisçi payı, %** |
| İdeal Biznes Ko MMC | 50.00 | 50.00 |
| Yevro Standart MMC | 33.85 | 33.85 |
| AMAL İnvest Qrup MMC | 16.15 | 16.15 |
| **Cəmi** | **100** | **100** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Bankın yekun mülkiyyətçiləri Bank üzrə birgə nəzarəti həyata keçirən xanım Leyla Əliyeva və xanım Arzu Əliyevadır.

## 2. Təqdimatın əsasları

### Mühasibat uçotunun əsasları

Qrupun bu konsolidə edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən buraxılan Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsi ("BMHŞK") tərəfindən buraxılan Şərhlərə uyğun olaraq hazırlanmışdır. Konsolidə edilmiş maliyyə hesabatları hər hansı başqa qeydlər olmazsa Azərbaycan manatı ilə təqdim olunmuşdur. Bu konsolidə edilmiş maliyyə hesabatları "İnvestisiya əmlakı" haqqında 40 saylı Beynəlxalq Mühasibat Uçotun Standartlarına ("BMUS") uyğun olaraq bəzi maliyyə alətlərinin ədalətli dəyərlə qiymətləndirilməsi və investisiya əmlakların yenidən qiymətləndirilən məbləğlərlə ölçülməsi istisna olmaqla, tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Qrup mühasibat uçotunu Azərbaycanın qanunvericiliyinə uyğun olaraq aparır. Bu konsolidə edilmiş maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və BMHS ə uyğunlaşdırılmışdır. Bu düzəlişlər əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələri, o cümlədən, bəzi aktivlərin və öhdəliklərin, gəlirlərin və xərclərin maliyyə hesabatı üzrə yenidən təsniflasdirilməsini özündə cəmləşdirir.

## 3. Mühüm mühasibat uçotu siyasətlərinin icmalı

### Konsolidasiyanın əsasları

Konsolidə edilmiş maliyyə hesabatlarına hər il 31 dekabr tarixinə hazırlanmış Bankın və Bank (onun törəmə müəssisələri) tərəfindən tənzimlənən müəssisələrin maliyyə hesabatları daxildir. Nəzarət o zaman təmin edilmiş hesab olunur ki, Bank sərmayə qoyulan müəssisənin fəaliyyətlərindən mənfəət əldə etmək məqsədilə onun maliyyə və əməliyyat qaydalarını tənzimləmək iqtidarında olsun.

Alış zamanı, aktivlər və öhdəliklər və filialın şərti öhdəlikləri onların alış tarixinə olan ədalətli dəyərləri ilə ölçülür. Alış dəyərinin alınmış xalis aktivlərin ədalətli dəyərlərindən artıq olduğu hər hansı məbləğ qudvil kimi tanınır. Alış dəyərinin alınmış xalis aktivlərin (yəni alış üzrə güzəst) ədalətli dəyərlərindən az olduğu hər hansı kəsir məbləğ mənfəət və zərər haqqında konsolidə edilmiş hesabata alışın aparıldığı dövr üzrə kreditləşdirilir. Azlıqların payı tanınmış aktiv və öhdəliklərin ədalətli dəyərlərinin azlıqların payı hissəsində göstərilir. Daha sonra, azlıqların payından artıq olan hər hansı aidiyyatı zərərlər ana müəssisənin payı üzrə bölüşdürülür. Ana müəssisənin kapital sahiblərinə aid olan səhmdar kapitalı və azlıq təşkil edən səhmdarların payına aid olan xalis gəlir müvafiq olaraq mənfəət və zərər haqqında konsolidə edilmiş hesabatda və konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ayrıca göstərilir.

İl ərzində alqı-satqı əməliyyatları aparan filialların nəticələri mənfəət və zərər haqqında konsolidə edilmiş hesabata alış əməliyyatının aparıldığı tarixdən və ya satış əməliyyatının aparıldığı tarixədək olan dövr üzrə müvafiq qaydada daxil edilir. Zərurət olduqda, istifadə olunan mühasibat uçotu qaydalarının Qrupun istifadə etdiyi mühasibat qaydalarına uyğunlaşdırılması məqsədilə filialların maliyyə hesabatlarına düzəlişlər edilir.

Qrup-daxili bütün mühüm əməliyyatlar, qalıqlar, gəlir və xərclər konsolidasiya zamanı silinir.

Azlıqların payının balans dəyəri ilə onun alınmasından əldə olunan məbləğ arasındakı fərq, əgər varsa ana müəssisənin kapital sahiblərinə aid olan kapitalda tanınır.

**Ədalətli dəyərin ölçülməsi**

Qrup maliyyə alətlərini mənfəət və ya zərərdə ədalətli dəyərlə (MZƏD) və digər ümumi gəlirdə ədalətli dəyərlə (DÜGƏD), qeyri-maliyyə aktivləri kimi təsnifləşdirilən investisiya əmlakını isə hər bir balans tarixində ədalətli dəyərdə ölçür.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazar; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda bazar qiymətləri (təshih edilməmiş) mövcud olanlar;
- Səviyyə 2 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

**Maliyyə aktivləri və öhdəlikləri**

***İlkin tanınma***

*Tanınma tarixi*

Maliyyə aktivlərinin və öhdəliklərinin müntəzəm şəkildə alınması və satılması sövdələşmə tarixindən, yəni maliyyə aktivi və ya öhdəliyinin satın alınması üçün Qrupun öz üzərinə öhdəlik götürdüyü andan başlayır. Müntəzəm satınalmalar və ya satışlar maliyyə aktivlərinin və öhdəliklərinin alışı və satışıdır ki, bu da bazarda tənzimləmə və ya konvensiya ilə müəyyənləşdirilmiş zaman ərzində maliyyə aktivlərinin və öhdəliklərinin çatdırılmasını tələb edir.

***İlkin ölçmə***

Maliyyə alətlərinin ilkin tanınmada təsnifatı onların müqavilə şərtlərindən və maliyyə alətlərini idarə etmək üçün biznes modelindən asılıdır. Maliyyə alətləri ilkin olaraq bazar dəyərilə ölçülür və MZƏD-də qeydə alınmış maliyyə aktivləri və maliyyə öhdəlikləri istisna olmaqla, bu məbləğə əməliyyat xərcləri ya əlavə edilir və ya çıxılır.

*Maliyyə aktivləri və öhdəliklərinin ölçü növləri*

Qrup özünün bütün maliyyə aktivlərini onların idarə etmək üçün biznes modelinə və aktivin müqavilə şərtlərinə uyğun təsnif edir:

- Amortizasiya hesablanmış dəyərlə;
- DÜGƏT;
- MZƏD.

Qrup öz derivativini və ticarət portfelini MZƏD-ə uyğun təsnif edir və ölçür. Qrup maliyyə alətlərini MZƏD-də təyin edə bilər, və belə edərsə, hesablamada və ya identifikasiyada uyğunsuzluqları aradan qaldırır ya da əhəmiyyətli dərəcədə azaldır.

Kredit öhdəliklərdən və maliyyə təminatlarından başqa maliyyə öhdəlikləri satış üçün saxlanıldıqda amortizasiya olunmuş dəyərlə və ya MZƏD üzrə ölçülür və onlar törəmə maliyyə alətləri hesab edilir və ya onlara real bazar qiyməti tətbiq edilir.

*Kredit təşkilatlarından alınacaq vəsaitlər, müştərilərə verilmiş kreditlər, amortizasiya hesablanmış dəyərlə investisiya qiymətli kağızları*

Qrup ancaq kredit müəssisələrindən daxil olmalı olan məbləğləri, müştərilərə veriləcək kreditləri və digər maliyyə investisiyalarını əgər aşağıdakı hər iki şərtlər ödəniləcəksə amortizasiya hesablanmış dəyərlə ölçür:

- Maliyyə aktivini qaydada saxlamaq və müqavilə şərtləriylə nəzərdə tutulmuş nəqd pul axınını toplamaq üçün maliyyə aktivləri bizness modeli çərçivəsində saxlanılır;
- Maliyyə aktivinin müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə pul vəsaitlərinin axınına səbəb olur və yalnız əsas məbləğin və faizin ödənilməsini (YƏMFÖ) ehtiva edir.

Bu şərtlərin detalları aşağıdakı kimi göstərilmişdir.

*Biznes modelinin qiymətləndirilməsi*

Qrup öz biznes modelini elə bir səviyyədə müəyyən edir ki, biznes məqsədinə nail olmaq üçün maliyyə aktivləri qruplarını necə idarə etdiyini yaxşı əks etdirən səviyyəyə nail olsun.

Qrupun biznes modeli maliyyə alətlərini individual əsasda deyil, maliyyə portfellərinin yüksək səviyyədə və müşahidə edilən aşağıdakı faktorlar üzrə qiymətləndirilir:

- Biznes modelinin və bu biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin idarə edilməsi necə qiymətləndirilir və müəssisənin əsas idarəetmə personalına məruzə edilir;
- Biznes modelinin (və biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) icrasına mənfi təsir edən risklər və xüsusən də bu risklərin idarə olunması yolları;
- Bizines menecerləri necə kompensasiya edilir (məsələn, kompensasiya idarə olunan aktivlərin ədalətli dəyərinə və ya müqavilə üzrə toplanmış nəqd pul vəsaitlərinin hərəkətinə əsaslanır);
- Satışların gözlənilən tezliyi, dəyəri və vaxtı Qrupun qiymətləndirməsində mühüm aspektlərdir.

Biznes modelinin qiymətləndirilməsi "ən pis vəziyyət" və "stress vəziyyəti" ssenarilərini nəzərə almadan, əsasən gözlənilən ssenarilərə əsaslanır. İlkin tanınmadan sonra pul vəsaitlərinin hərəkəti Qrupun ilkin gözləntilərindən fərqli bir şəkildə həyata keçirilərsə, Qrup, həmin biznes modelində saxlanılan qalan maliyyə aktivlərinin təsnifatını dəyişmir, lakin yeni əldə edilmiş və ya yeni alınmış maliyyə aktivlərini qiymətləndirərkən bu məlumatları birləşdirərək irəli gedir.

*YƏMFÖ testi*

Təsnifat prosesinin ikinci bir addımı olaraq, Qrup maliyyə aktivinin müqavilə şərtlərini YƏMFÖ testinə cavab verib vermədiyini müəyyənləşdirmək üçün qiymətləndimə aparır.

İlkin tanınmada bu testin "əsas" məqsədi maliyyə aktivinin real bazar qiyməti ilə müəyyən olunmasıdır və maliyyə aktivinin müddəti boyunca dəyişə bilər (məsələn, əgər kreditin ödənilməmiş və ya mükafatın/endirimin amortizasiyası varsa).

Kreditləşmə razılaşması daxilində faizlərinn ən əhəmiyyətli elementləri adətən pul və kredit riskinin vaxt dəyərinə aiddir. YƏMFÖ qiymətləndirməsi etmək üçün, Qrup mühakimə yürüdərək uyğun faktorlar, məsələn valyuta hansı maliyyə aktivində göstərilib və faiz dərəcəsinin müəyyənləşdirildiyi dövrü nəzərdən keçirir.

Əksinə, risklərə ən cüzi meylliyi olan müqavilə şərtləri, yaxud müqavilə üzrə nəqd pul vəsaitlərinin axınında qeyri-sabitlik hansı ki, əsas kredit müqaviləsiylə əlaqəli deyil və müqavilə üzrə nəğd pul vəsaitlərinin axınına səbəb olmur və sırf əsas məbləğin və qalıq məbləğ üzrə faizlərin ödənişini nəzərdə tutur. Belə hallarda maliyyə aktivinin MZƏD-lə ölçülməsi tələb olunur.

*DÜGƏD-lə borc alətləri*

Qrup MHBS 9 adı altında yeni borc alətləri kateqoriyası tətbiq edir ki, bu da aşağıdakı hər iki şərt yerinə yetirildikdə DÜGƏD ilə ölçülür:

- Qiymətli kağız biznis modeli çərçivəsində saxlanılır və bunun məqsədi müqavilə üzrə həm nəqd pul axınına və maliyyə aktivlərini satmağa nail olmaqdır;
- Maliyyə aktivinin müqavilə şərtləri YƏMFÖ testinə uyğundur.

DÜGƏD borc alətləri nəticədə ümümi gəlirdə bazar qiymətində, gəlirlər və itkilər nəzərə alınmaqla hesablanır. Faiz üzrə gəlir və xarici valyuta mübadiləsindən əldə edilən mənfəət və zərərlər amortizasiya hesablanmış dəyərlə ölçülən maliyyə aktivi kimi mənfəət və zərərdə tanınır. Balansdan silmə baş verərsə, öncədən digər ümumi gəlirdə (DÜG) tanınmış məcmu mənfəət və ya zərər, DÜG-dən mənfəət və ya zərər kimi təsnif edilir.

DÜGƏD-də ölçülən GKZ üzrə borc alətləri maliyyə aktivlərinin cari balans dəyərini maliyyə vəziyyəti barədə bəyanatda azaltmır və bazar qiyməti dəyərində qalır. Əvəzində, aktivin amortizasiya hesablanmış dəyərlə ölçülməsi halında yaranacaq ehtiyata bərabər olan məbləğ, DÜG-də mənfəət və ya zərərə müvafiq ayırma yığılmış dəyərsizləşmə məbləği olaraq tanınır. DÜG-də tanınmış yığılmış zərərlər, aktivin balansdan silinməsi zamanı mənfəət və zərər hesabına qaytarılır.

*DÜGƏD-lə kapital maliyyə alətləri*

İlkin tanınma zamanı, Mühasibat Ucotunun Beynəlxalq Standartı 32 Maliyyə Alətləri: Təqdimata uyğun gələndə, Qrup hərdən bir özünün DÜGƏD-də bəzi kapital maliyyə alətlərini qaytarılçaz maliyyə alətləri kimi təsnif edir. Bu cür təsnifat maliyyə alətləri üzrə ayrı ayrılıqda müəyyən edilir.

Bu kapital maliyyə alətləri üzrə gəlirlər və zərərlər heç vaxt mənfəət və ya zərərə təkrarən tanınmır. Ödəniş hüququ müəyyən ediləndə, dividentlər başqa gəlir kimi mənfəət və zərərdə tanınır. Bu o vaxt istisna hesab edilir ki, Qrup bu məbləğdən maliyyə vəsaitinin bir hissəsin toplanmasından gəlir əldə edir və belə halda bu çür mənfəət DÜG-də qeyd olunur. DÜGƏD-də kapital maliyyə alətləri dəyərsizləşmənin qiymətlənirilməsinə məruz qalmır. Bu maliyyə alətlərin satışından sonra yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

*Verilmiş maliyyə zəmanətləri, akkreditivlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəlikləri*

Qrup maliyyə zəmanətləri, akkreditiv və kredit öhdəlikləri verir

Maliyyə zəmanətləri ilkin olaraq maliyyə hesabatlarında alınmış mükafata bərabər olan ədalətli dəyərlə tanınır. İlkin tanınmadan sonra Qrupun hər bir zəmanət üzrə öhdəliyi konsolidə edilmiş mənfəət və ya zərər haqqında hesabatında tanınmış məcmu amortizasiya çıxılmaqla ilkin olaraq tanınır və GKZ ehtiyat məbləğlərindən daha yuxarı olanı ilə ölçülür.

Kredit vermə öhdəlikləri və akkreditivlər elə bir öhdəliklərdir ki, onlara uyğun olaraq öhdəliyin etibarlılığı müddətində, Qrupdan müştəriyə əvvəlcədən müəyyən edilmiş şərtlərlə kredit verməsini tələb edir. Maliyyə təminatı müqavilələrinə uyğun olaraq bu müqavilələr GKZ-nin tələbləri daxilindədir.

*İcra zəmanətləri*

İcra zəmanətləri digər tərəf müqavilə öhdəliyi yerinə yetirmədikdə kompensasiya təmin edən müqavilələrdir. İcra zəmanətləri kredit riskini ötürmür. İcra təminatı müqavilələri üzrə risk digər tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi ehtimalından qaynaqlanır. Buna görə də, performans təminatları maliyyə alətləri hesab edilmir və beləliklə, 9-saylı MHBS-in fəaliyyət dairəsini daxil edilmir.

***Maliyyə aktivlərinin və öhdəliklərinin yenidən təsnif edilməsi***

Qrup, maliyyə aktivlərini idarə etmək üçün biznes modelini dəyişdirmə istisna olmaqla, ilkin tanınmaya qədər maliyyə aktivlərini yenidən təsnif etmir. Maliyyə öhdəlikləri heç vaxt yenidən təsnif edilmir. 2019-cu ildə, Qrup hər hansı bir maliyyə aktivi və öhdəliyini yenidən təsnif etməmişdir.

**Restrukturizasiya edilmiş kreditlər**

İmkan dairəsində Bank girova yiyələnmək əvəzinə kredit şərtlərini dəyişdiməyə çalışır. Buna müqavilə ilə nəzərdə tutulmuş ödəniş müddətlərinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılması daxildir.

Bank maliyyə aktivinin, məsələn müştəriyə verilən kreditin müddəti və şərtləri onun yeni bir kreditə çevriləcəyi şəkildə dəyişdirildiyi halda maliyyə aktivinin tanınmasını dayandırır, fərq isə dəyərsizləşmə zərəri qeydə alınmadığı halda tanınmanın dayandırılması ilə bağlı gəlir və ya zərər kimi tanınır. Yeni tanınmış kreditlər, AYKD olması ehtimal edilməyəndə, GKZ-nin ölçülməsi məqsədləri üçün Mərhələ 1 kimi təsnif edilir. Müştəriyə verilən kreditin tanınmasının dayandırılması baxımından qiymətləndirmə apararkən Bank aşağıdakı amilləri nəzərə alır:

- Kreditin valyutasında dəyişiklik;
- Qarşı tərəfin dəyişməsi;
- Dəyişiklik nəticəsində alət artıq YƏMFÖ meyarına uyğun olmayanda.

Dəyişiklik əhəmiyyətli şəkildə fərqli olan pul vəsaitlərinin hərəkəti ilə nəticələnmirsə, dəyişiklik tanınmanın dayandırılmasına gətirib çıxarmır. İlkin EFD (effektiv faiz dərəcəsi) ilə diskontlaşdırılan pul vəsaitlərinin hərəkətində dəyişiklik əsasında Bank, dəyərsizləşmə zərəri qeydə alınmadığı halda konsolidasiya edilmiş mənfəət və ya zərərdə EFD istifadə etməklə hesablanmış faiz gəlirinin tərkibində təqdim edilmiş dəyişiklikdən irəli gələn gəlir və ya zərəri qeydə alır.

**Maliyyə aktivlərinin və öhdəliklərinin uçotdan çıxarılması**

*Maliyyə aktivləri*

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının vaxtı başa çatmışdır;
- Qrup özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya aktivdən pul vəsaitlərini almaq hüququnu saxlayaraq, üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və
- Qrup: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürməmiş və ya özündə saxlamamış; lakin onlar üzrə nəzarət hüququnu köçürmüşdür.

Qrup aktivdən pul vəsaitləri hərəkətini almaq hüququnu köçürmüş və aktiv üzrə risk və səmərələrin əksəriyyətini nə köçürməmiş, nə onları özündə saxlamamış, nə də aktiv üzrə nəzarət hüququnu köçürməmişdirsə, aktiv, Qrupun həmin aktivdə davam edən iştirakı müqabilində əks etdirilir. Köçürülmüş aktiv üzrə zəmanət formasında aktivdə iştirakın davam etməsi aktivin ilkin balans dəyəri ilə Qrupdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən az olanı ilə ölçülür.

Aktivdə iştirak, köçürülmüş aktiv üzrə yazılı və/və ya satın alınmış opsion (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) formasında davam edirsə, Qrupun davam edən iştirakının həddi köçürülən aktivin Qrup tərəfindən geri alınacaq dəyərinə bərabərdir. Lakin ədalətli dəyərlə qiymətləndirilən aktiv üzrə yazılı "put" opsionu (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) istisna təşkil edir və bu halda Qrupun davam edən iştirakının həddi, köçürülən aktivin ədalətli dəyəri və opsionun icra qiymətindən az olanı ilə məhdudlaşır.

*Silinmə*

Maliyyə aktivləri yalnız Qrup bərpanı dayandırdıqda tam və ya qismən silinir. Silinəcək məbləğ yığılmış kredit ehtiyatından böyükdürsə, fərq ilk öncə ehtiyata əlavə kimi tanınır, sonra isə ümumi balans dəyərinə aid edilir. Sonrakı bərpalar kredit zərəri üzrə xərcin azaldılmasına gətirib çıxarır. Silinmə tanınmanın dayandırılmasının bir növüdür.

*Maliyyə öhdəlikləri*

Maliyyə öhdəliyi müvafiq öhdəlik icra edildikdə, ləğv edildikdə və ya vaxtı başa çatdıqda uçotdan çıxarılır.

Mövcud olan bir maliyyə öhdəliyi eyni kreditor qarşısında tam fərqli şərtlərlə digəri ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtlərinə əhəmiyyətli düzəlişlər edildikdə, belə əvəz etmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılmasını və yeni öhdəliyin tanınmasını tələb edir və müvafiq balans dəyərlərindəki fərqlər mənfəət və ya zərərdə əks etdirilir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri kassada olan pul vəsaitləri, Azərbaycan Respublikası Mərkəzi Bankından alınacaq məbləğlərdən doxsan gün müddətinə olan müddətli depozitlər daxil olmaqla və digər banklardakı müxbir hesablardan ibarətdir.

**Qiymətli metallar**

Qızılla və digər qiymətli metalla müəyyən olunan aktiv və öhdəliklərin mübadiləsi Mərkəzi Bankın həmin tarixə müəyyən etdiyi məzənnəyə əsasən hesablanan cari dəyərlə aparılır. Alqı-satqı qiymətlərindəki fərqlər Qiymətli metal əməliyyatlarının xalis gəlirinə daxil edilir.

**İnvestisiya əmlakı**

İnvestisiya əmlakı icarə haqqı əldə etmək və ya kapital dəyərini artırmaq, yaxud hər ikisi üçün saxlanılan və Qrupa daxil olan şirkətlər tərəfindən zəbt olunmayan və ya satış üçün nəzərdə tutulmayan torpaq və ya binalardan ibarət olur. Əməliyyat məqsədli icarə üçün saxlanılan əmlak yalnız o zaman investisiya əmlakı kimi təsnif olunur ki, o, investisya əmlakının tərifinə uyğun olsun. İnvestisiya əmlakı ədalətli dəyərlə uçota alınır. Onun ədalətli dəyəri, zəruri olduqda əmlakın xüsusiyyətində yerində və ya şəraitində hər hansı fərqlər uyğunlaşdırıldıqdan sonra cari bazar qiymətləri əsasında müəyyən olunur. Belə məlumat mövcud olmadıqda Qrup nağd pul vəsaiti hərəkətlərinin diskontlaşdırılmış proqnozları kimi alternativ qiymətləndirmə üsullarından istifadə edir. İnvestisiya əmlakının ədalətli dəyərində baş verən dəyişikliklər mənfəət və zərərlər haqqında hesabatda əks olunur.

**Əmlak, avadanlıq və qeyri-maddi aktivlər**

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər yığılmış köhnəlmə və amortizasiya və tanınmış hər hansı dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə tanınır. Başa çatdırılmamış və istismara buraxılmamış aktivlər üzrə köhnəlmə aktivlərin istifadəyə hazır olduğu tarixdən hesablanır.

Köhnəlmə əmlakın, avadanlığın və qeyri-maddi aktivlərin balans dəyərlərindən çıxılır və onların faydalı istismar müddətləri üzrə silinir. Amortizasiya aşağıdakı illik faiz dərəcələrini istifadə etməklə bərabər hissələrlə köhnəlmə metodu əsasında hesablanır:

| | |
|---|---|
| Binalar | 3.3% |
| Mebel və avadanlıq | 25% |
| Kompüterlər | 25% |
| Nəqliyyat vasitələri | 15% |
| Digər avadanlıq | 20% |
| Qeyri-maddi aktivlər | 10% |

Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin balans dəyərlərinin onların bərpa dəyərlərindən artıq dəyərlə uçota alınıb-alınmadığını qiymətləndirmək üçün onlar hər hesabat tarixində nəzərdən keçirilirlər. Balans dəyəri bərpa dəyərindən artıq olduğu halda, aktivlərin dəyəri bərpa dəyəri səviyyəsinədək silinir. Dəyərsizləşmə zərəri müvafiq dövrdə qeydə alınır və əməliyyat xərclərinə daxil edilir. Dəyərsizləşmə zərəri qeydə alındıqdan sonra əsas vəsaitlərin köhnəlmə xərcləri, ondan qalıq dəyərini çıxmaqla (əgər varsa), aktivlərin düzəliş olunmuş balans dəyərini sistemli şəkildə qalan iqtisadi faydalı dövrünə bölmək məqsədilə gələcək dövrlərə uyğunlaşdırılır.

**Ehtiyatlar**

Ehtiyatlar Qrup keçmiş hadisələr nəticəsində cari hüquqi və ya konstruktiv öhdəliyə malik olduqda, və öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi cəhətdən faydalı ehtiyatların azalması ehtimalı yarandıqda və öhdəlik düzgün qiymətləndirildikdə uçota alınır.

**Vergi**

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmini əks etdirir. Cari dövr üçün mənfəət vergisi xərcləri il ərzində əldə olunmuş vergiyə cəlb olunan mənfəət əsasında müəyyən edilir. Vergiyə cəlb olunan mənfəət mənfəət və zərər haqqında hesabatda göstərilən xalis mənfəətdən fərqlənir, çünki vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələri daxil deyil, bundan əlavə o, heç vaxt vergiyə cəlb olunmayan və vergi tutulmayan maddələri özündə birləşdirmir. Qrupun cari vergi xərcləri hesabat dövründə qüvvəyə minən vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış vergilər balans hesabatının öhdəlik metodunu istifadə etməklə hesabat olunur və aktiv və öhdəliklərin balans dəyərləri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə olunan müvafiq vergi bazaları arasında yaranan fərqlər üzrə mənfəət vergisi aktivlərini və öhdəlikləri əks etdirir. Təxirə salınmış vergi öhdəlikləri adətən bütün vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün tanınır, təxirə salınmış vergi aktivləri isə istifadə edilən tutulmalı müvəqqəti fərqlərə qarşı yaranması ehtimal edilən vergiyə cəlb olunan mənfəətin həcmində tanınır. Əgər müvəqqəti fərq qudvildən və ya vergiyə cəlb olunan mənfəətə və maliyyə mənfəətinə təsir etməyən əməliyyatlar üzrə digər aktiv və öhdəliklərin (müəssisənin birləşməsindən başqa) ilkin tanınmasından yaranırsa, bu cür aktivlər və öhdəliklər tanınmır. Təxirə salınmış vergi öhdəlikləri filiallara və əlaqəli müəssisələrə investisiyalardan yaranan vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün və birgə müəssisələrdə paylar üçün tanınır. Burada Bankın müvəqqəti fərqləri bərpa edə bildiyi və müvəqqəti fərqin yaxın gələcəkdə bərpa edilməsi ehtimalının olmadığı hallar istisnadır. Bu cür investisiyalar və paylarla əlaqəli tutulan müvəqqəti fərqlərdən yaranan təxirə salınmış vergi aktivləri yalnız vergiyə cəlb olunan mənfəətin müvəqqəti fərqlər üzrə mənfəətə qarşı əvəzləşdirilməsi mümkün olan və yaxın gələcəkdə bərpa edilməsi gözlənilən həcmdə tanınır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və aktivlərin bütün hissəsini və ya müəyyən hissəsini bərpa etməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimal edilməyən həcmdə azaldılır.

Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri aşağıdakı hallarda əvəzləşdirilir və balans hesabatında əks olunur:

- Qrup cari mənfəət vergisi aktivlərini cari mənfəət vergisi öhdəliklərinə qarşı əvəzləşdirmək hüququna malik olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri eyni vergi orqanı tərəfindən eyni təşkilatdan tutulan mənfəət vergisinə aid olduqda.

Təxirə salınmış vergi öhdəliklər üzrə hesablaşmanın aparıldığı və ya aktivlərin realizə olunduğu dövrdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi mənfəət və zərər haqqında hesabatda xərc maddəsi kimi göstərilir və ya hesabatın kredit balansına yazılır, lakin təxirə salınmış verginin birbaşa kapitala və hesabatın kredit balansına yazıldığı hallar istisna təşkil edir, belə ki, bu halda təxirə salınmış vergi səhmdar kapitalı ilə bağlı olur.

**Banklara ödənilməli vəsaitlər və müştəri hesabları**

Banklara ödənilməli vəsaitlər və müştəri hesabları ilk olaraq ədalətli dəyərlə tanınır. Daha sonra ödənilməli məbləğlər amortizasiya dəyəri ilə göstərilir və balans dəyəri ilə geri alınma dəyəri arasındakı hər hansı fərq mənfəət və zərər haqqında konsolidə edilmiş hesabatda effektiv faiz metodunu istifadə etməklə borcların yarandığı dövr üzrə tanınır.

**Şərti aktivlər və öhdəliklər**

Hesablaşma üzrə hər hansı pul vəsaitləri məxaricinin yaranma ehtimalı olmayanadək şərti öhdəliklər konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında tanınmır lakin açıqlanır. Şərti aktivlər konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında tanınmır lakin iqtisadi mənfəətin əldə olunması ehtimalı olduqda açıqlanır.

**Səhmdar kapitalı**

Adi səhmlər səhmdar kapitalı kimi təsnif edilir. Şirkətlərin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olaraq üçüncü tərəflərə ödənişlərə çəkilən xərclər kapitalın tərkibində həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir. Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin buraxılmış səhmlərin nominal dəyərindən artıq məbləği əlavə kapital kimi əks etdirilir.

Adi səhmlər üzrə dividendlər kapitalda elan olunduqları dövrdə azalma kimi tanınır. Hesabat tarixindən sonra elan olunan dividendlər "Hesabat tarixindən sonrakı hadisələr" haqqında 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına (BMUS) uyğun olaraq balans hesabatından sonrakı hadisə kimi tanınır və müvafiq qaydada açıqlanır.

**Pensiya və digər müavinətlər**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Qrup işçilərin əmək haqlarından pensiya haqlarını tutur və onları dövlət pensiya fonduna köçürür. Belə xərclər müvafiq əmək haqlarının qazanıldığı dövrdə çıxılır. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət pensiya fondu tərəfindən yerinə yetirilir. Qrup, işə götürən tərəfindən cari məcmu əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış cari ödənişlərin həyata keçirilməsini tələb edən Azərbaycan Respublikasının dövlət pensiya sistemindən başqa hər hansı pensiya sisteminə malik deyildir. Bundan başqa, Qrupda əmək fəaliyyətinin başa çatması ilə bağlı hesablanması tələb olunan müavinətlər və ya ödənilməli digər mühüm müavinətlər mövcud deyildir.

**Gəlir və xərclərin tanınması**

Gəlir iqtisadi mənfəətin Qrupa axın etməsi ehtimalı olduqda və gəlirin etibarlı şəkildə ölçülə biləcəyi dərəcədə tanınır. Gəlirin tanınmasından əvvəl aşağıdakı xüsusi tanınma meyarları da yerinə yetirilməlidir:

*Faiz və oxşar gəlir və xərc*

Qrup borc maliyyə aktivlərinə faiz gəlirini amortizasiya hesablanmış dəyərlə yaxud DÜGƏD-də maliyyə aktivinin ümumi balans dəyərinə EFD-ni tətbiq etməklə kreditlərin dəyərsizləşməmiş aktivlərindən başqa maliyyə aktivlərinin ümumi balans dəyərinə tətbiq etməklə hesablayır. EZD, maliyyə alətinin gözlənilən ömrü boyunca və ya müvafiq olduğu təqdirdə, maliyyə aktivinin və ya maliyyə öhdəliyinin xalis balans dəyərinə görə təxmin edilən gələcək nağd pul vəsaitlərini və ya daxilolmalarını dəqiqləşdirən dərəcədir. Hesablama maliyyə alətinin bütün müqavilə şərtlərini (məsələn, əvvəlcədən ödəniş variantları) nəzərə alır və alətə birbaşa aid olan və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan, lakin gələcək kredit itkiləri olmayan hər hansı ödənişlər və ya əlavə xərclər daxildir. Əgər Qrup təxmini ödəniş və ya daxilolmaları yenidən nəzərdən keçirirsə, maliyyə aktivinin və ya maliyyə öhdəliyinin balans dəyərinə düzəliş edilir. Düzəliş edilmiş balans dəyəri, orijinal effektiv faiz dərəcəsi əsasında hesablanır və balans dəyərində dəyişiklik faiz gəlirləri və ya xərc kimi qeyd edilir.

Maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsi halı baş verdikdə, Qrup faiz dərəcəsini hesablamaq üçün maliyyə aktivinin net amortizasiya olunmuş dəyərinə efektiv faiz dərəcəsi tətbiq etməklə hesablama aparır. Maliyyə aktivləri sağlamlaşdırıldıqda və artıq kredit üzrə dəyərsizləşmə halı olmadıqda, Qrup faiz gəlirini ümumi metod əsasında hesablayır.

Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivlərilə (AYKD) bağlı, Qrup faiz gılirlırini kredit üzrə dəyişiklik edilən efektiv faiz dərəcəsi üzrə hesablayır və o dərəcəni maliyyə aktivinin amortizasiya ilə hesablanmış dəyərinə tətbiq edir. Kredit üzrə dəyişiklik edilən efektiv faiz dərəcəsi ilkin tanlnmada gələcək pul vəsaitlərinin hərəkətini (kredit itkiləri daxil olmaqla) AYKD-i aktivlərinin amortizasiya olunmuş dəyərinə endirən faiz dərəcəsidir.

MZƏD kimi təsnifləşdirilən bütün maliyyə aktivləri üzrə faiz gəlirləri müqavilə üzrə faiz dərəcəsindən istifadə etməklə tanınır.

*Haqq və komissiya gəlirləri*

Qrup öz müştərilərinə müxtəlif xidmətlər göstəməklə haqq və komisyon gəliri əldə edir. Komissiya gəlirləri aşağıdakı iki kateqoriyaya bölünə bilər:

*Müəyyən bir müddət ərzində verilmiş xidmətlərdən əldə olunan xidmət haqqı*

Bir müddət ərzində xidmətlərin göstərilməsindən əldə olunan qazanc həmin müddət ərzində hesablanır. Bu haqlara zəmanətlər və akkreditivlər üzrə komissiya gəlirləri daxildir. Veriləcək kreditlər üzrə borc öhdəlikləri və digər kreditlərlə əlaqədar ödənişlər təxirə salınır (hər hansı artım xərcləri ilə birlikdə) və kredit üzrə effektiv faiz dərəcəsinə düzəliş kimi tanınır.

*Bir vaxt anında qazanılmış komissiya gəliri*

Nağd və nağd əməliyyatlardan yaranan rüsumlar əsas əməliyyatlar başa çatdıqdan sonra tanınır. Hər bir nağd əməliyyat və hesablaşma əməliyyatı ayrı-ayrı öhdəlik kimi qəbul edilir.

**Xarici valyuta əməliyyatları**

Xarici valyuta ilə ifadə olunan müəyyən edilmiş pul aktiv və öhdəlikləri hesabat tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan Manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Bu əməliyyatlardan yaranan gəlir və zərər xarici valyuta mübadiləsi üzrə xalis gəlir kimi qeyd edilir.

**Xarici valyuta məzənnələri**

Qrup ilin sonuna konsolidə edilmiş maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2019** | | **31 dekabr 2018** |
|---|---|---|---|
| 1 ABS dolları | = 1.7000 manat | 1 ABS dolları | = 1.7000 manat |
| 1 Avro | = 1.9035 manat | 1 Avro | = 1.9468 manat |
| 1 İngiltərə funt sterlinqi | = 2.2284 manat | 1 İngiltərə funt sterlinqi | = 2.1529 manat |
| 1 Rusiya rublu | = 0.0274 manat | 1 Rusiya rublu | = 0.0245 manat |

**Maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi**

Qrup qeydə alınmış məbləğləri təmin etmək üçün hüquqi qüvvəyə malik olduqda və ya Qrup eyni zamanda aktivlərini maddi vəsaitə çevirmək və ya öhdəliklərini yerinə yetirmək, yaxud da hər ikisi üzrə xalis əsasda hesablaşma aparmaq niyyətində olduqda maliyyə aktivləri və öhdəlikləri tutuşdurulur və konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında xalis məbləğlə qeyd olunur. Silinməsinə icazə verilməyən maliyyə aktivinin köçürülməsini uçota alarkən Qrup köçürülmüş aktivi və ya əlaqəli öhdəliyi əvəzləşdirmir.

## 4. Yeni və ya yenidən baxılmış standartlar və şərhlərin qəbul olunması

*1 yanvar 2019-cu il tarixindən etibarən müəyyən yeni standartlar və şərhlər Qrup üçün qüvvəyə minmişdir. Bu yeni mühasibat uçotu standartlarının qəbul edilməsi nəticəsində yaranan dəyişikliklərin xarakteri və təsiri aşağıda açıqlanmışdır.*

***16 saylı MHBS "İcarələr"***

16 saylı MHBS 17 saylı MUBS "İcarələr", BMHŞK 4 "Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi" Şərhi , Standartların Şərhi Komitəsinin ("SŞK") 15 saylı "Əməliyyat icarələri - həvəsləndirmələr" Standartı və SŞK-nın 27 saylı "İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi" standartını əvəz edir. 16 saylı MHBS icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və icarəçilərdən icarələrin çoxunu balans hesabatında tanımağı tələb edir.

16 saylı MHBS əsasında icarədarın uçotu 17 saylı MUBS-a uyğun uçot qaydasından əhəmiyyətli fərqlənmir. İcarədarlar bütün icarələri 17 saylı MUBS-da nəzərdə tutulan həmin təsnifata uyğun olaraq təsnif etməyə və iki icarə növünü: əməliyyat və maliyyə icarələrini ayırmağa davam edəcək.

Qrup 16 saylı MHBS-ni 1 yanvar 2019-cu il ilkin tətbiqetmə tarixi ilə düzəlişlər edilmiş retrospektiv metodundan istifadə etməklə qəbul etmişdir. Bu metoda əsasən, standart retrospektiv qaydada tətbiq edilir və onun ilkin tətbiqinin məcmu təsiri ilkin tətbiqetmə tarixində tanınır. Qrup keçidlə bağlı praktiki məqsədəuyğun vasitədən istifadə etməklə standartı yalnız ilkin tətbiq tarixində 17 saylı MUBS və 4 saylı BMHŞK şərhini tətbiq etməklə daha əvvəl icarələr kimi müəyyən edilmiş müqavilələrə tətbiq etməyi seçmişdir. Qrup, həmçinin, başlanğıc tarixində icarə müddəti 12 aydan çox olmayan və alış opsionunu daxil etməyən (qısamüddətli icarələr) və əsas aktivi azdəyərli olan ("azdəyərli aktivlər") icarə müqavilələri üçün tanıma istisnalarını istifadə etməyi seçmişdir.

1 yanvar 2019-cu il tarixinə 16 saylı MHBS-nin qəbul edilməsinin təsiri aşağıdakı kimi olmuşdur:

| | *MHBS 16-ya keçidin təsiri* |
|---|---|
| **Əmlak və avadanlıq (istifadə hüququ olan aktivlər)** | **4,552,862** |
| Digər aktivlər (qabaqcadan ödənişlər) | (296,117) |
| **İcarə öhdəlikləri** | **4,256,745** |

*(a) 16 saylı MHBS-nin qəbul edilməsinin təsirinin xarakteri*

Qrupun binalar üçün icarə müqavilələri mövcuddur. 16 saylı MHBS-nin qəbul edilməsindən əvvəl Qrup özünün hər bir icarəsini (icarəçi qismində) ilkin tanınma tarixində maliyyə icarəsi və ya əməliyyat icarəsi kimi təsnifləşdirmişdir. Əsas aktivin mülkiyyətçiliyi ilə bağlı əsas etibarilə bütün risklər və mükafatlar Qrupa ötürüldükdə, həmin icarə maliyyə icarəsi, digər hallarda isə əməliyyat icarəsi kimi təsnifləşdirilmişdir. Maliyyə icarələri icarə başlananda icarəyə götürülmüş əmlakın başlanma tarixinə olan ədalətli dəyəri və ya daha aşağı olduğu təqdirdə minimal icarə ödənişlərinin cari dəyəri ilə kapitallaşdırılmışdır. İcarə ödənişləri faiz ve icarə öhdəliyinin azalması arasında bölüşdürülmüşdür. Əməliyyat icarəsində, icarəyə götürülmüş əmlak kapitallaşdırılmamış və icarə odənişləri icarə müddəti ərzində düz xətt üsulu ilə mənfəət və ya zərərdə icarə xərcləri kimi tanınmışdır. Əvvəlcədən ödənilmiş icarə və hesablanmış icarə müvafiq olaraq Digər aktivlər və Digər öhdəliklərdə tanınmışdır.

16 saylı MHBS-nin qəbul edilməsinden sonra Qrup qısa-müddətli icarələr və azdəyərli aktivlərin idarəsi istisna olmaqla bütün icarələr üçün vahid tanınma və ölçmə yanaşmasını tətbiq etmişdir. Bu standart Qrup tərəfindən tətbiq edilmiş xüsusi keçid tələbləri və praktiki vasitələri təqdim edir.

*Əvvəllər əməliyyat icarəsi kimi uçota alınan icarələr*

Qrup qısa müddətli icarələr və azdəyərli aktivlərin icarələri istisna olmaqla istifadə hüququ olan aktivləri va icarə öhdəliklərini əvvəllər əməliyyat icarələri kimi təsnifləşdirilmiş icarələr üçün tanımışdır. İstifadə hüququ olan aktivlər əvvəllər tanınmış hər hansı əlaqəli əvvəlcədən ödənilmiş və yığılmış icarə ödənişləri nəzərə alınmaqla düzəliş edilmiş icarə öhdəliklərinə bərabər məbləğdə tanınmışdır. İcarə öhdəlikləri ilkin tətbiqetmə tarixinə artan faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılmış ödənilməmiş icarə ödənişlərinin cari dəyəri əsasında tanınmışdır.

Qrup həmçinin mövcud praktiki məqsədəuyğun vasitəni aşağıdakı hallarda tətbiq etmişdir:

- Əsaslı şəkildə oxşar xarakterli icarələr portfelinə vahid diskont dərəcəsi tətbiq edilmişdir;
- İlkin tətbiq etmə tarixindən dərhal öncə icarələrin şərtlərinin ağırlaşdırılmış olub-olmadığı ilə bağlı öz qiymətləndirməsinə etibar etmişdir;
- Qısamüddətli icarələr üzrə istisnaları icarə müddəti ilkin tətbiq etmə tarixindən sonra 12 ay ərzində bitən icarələrə tətbiq etmişdir;
- İlkin tətbiqetmə tarixində ilkin birbaşa məsrəfləri istifadə etmə hüququ olan aktivin qiymətləndirməsindən çıxmışdır;
- İcarə müqaviləsində icarənin uzadılması və ya ləğv edilməsi hüquqları olduqda icarə müddətini müəyyənləşdirərkən keçmişə nəzər salmışdır.

Yuxarıdakılara əsasən 1 yanvar 2019-cu il tarixinə:

- 4,552,862 AZN məbləğində istifadə hüququ olan aktivlər tanınmışdır;
- 4,256,745 AZN məbləğində icarə öhdəlikləri tanınmışdır;
- 296,117 AZN məbləğində əvvəlki əməliyyat icarəsi ilə əlaqədar əvvəlcədən ödəmələr tanınmadan çıxarıldı.

*(b) Yeni mühasibat uçotu siyasətlərinin xülasəsi*

16 saylı MHBS-nin qəbul edilməsindən sonra Qrupun yeni mühasibat uçotu siyasətləri aşağıda təsvir edilir. Həmin siyasətlar ilkin tətbiqetmə tarixindən etibarən tətbiq edilmişdir:

*Qrup icarəçi qismində*

Qrup, qısamüddətli icarələr və az dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçmə yanaşmasını tətbiq edir. Qrup icarə ödənişlərini etmək üçün icarə öhdəliklərini və əsas aktivləri istifadə etmək hüququnu teqdim edən istifadə hüququ olan aktivləri tanıyır.

İstifadə hüququ olan aktivlər

Qrup istifadə hüququ olan aktivləri icarənin başlanma tarixində, (yəni əsas aktiv istifadə üçün mövcud olduğu tarixdə) tanıyır. İstifadə hüququ olan aktivlər yığılmış köhnəlmə və dəyərsizləşmə zərərlərini çıxmaqla və icarə öhdəliklərinin hər hansı yenidən ölçülməsi üzrə düzəliş etməklə maya dəyəri ilə ölçülür İstifadə hüququ olan aktivlərin maya dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği, çəkilən ilkin birbaşa xərclər və icarə üzrə alınmış hər hansı güzəştlər çıxıldıqdan sonra icarə müddətinin başlanğıc tarixində və ya ondan əvvəl edilmiş hər hansı icarə ödənişləri daxildir. Lakin icarə müddətinin sonunda mülkiyyət hüququnun Qrupa keçəcəyi haqqında kifayət qədər əminlik olmadığı təqdirdə, tanınmış istifadə hüququ olan aktivlər üzrə ehtimal edilən faydalı istifadə müddəti və icarə müddətindən daha qısa olanı istifadə edilməklə düz xətt üsulu ilə köhnəlmə hesablanır. İstifadə hüququ olan aktivlər dəyərsizləşməyə məruz qala bilər.

İcarə öhdəlikləri

İcarənin başlanma tarixində, Qrup icarə müddəti ərzində ediləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə icarə güzəştləri üzrə alınacaq məbləğlər çıxılmaqla sabit ödənişlər (o cümlədən mahiyyətcə sabit ödənişlər), indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri və zəmanətli son qalıq dəyəri üzrə icarəçi tərəfindən ödənilməsi gözlənilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin Qrup tərəfindən gerçəkləşdirilməsi əsaslı şəkildə yəqin olduğu halda alış hüququnun gerçəkləşdirildiyi qiymət və icarə müddəti ərzində Qrup icarəni ləğv etmə hüququnu gerçəkləşdirərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri daxildir. İndeks və ya dərəcələrdən asılı olmayan dəyişkən icarə ödənişləri ödənişin həyata keçirilməsi ilə nəticələnən hal və ya şəraitin baş verdiyi dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsinin dərhal müəyyən edilməsi mümkün olmadığı təqdirdə Qrup icarənin başlanma tarixinə olan marjinal faiz dərəcəsini istifadə edir. Başlanma tarixindən sonra, icarə öhdəliklərinin məbləği faizin artımını əks etdimək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, modifikasiya, icarə müddətində dəyişiklik, mahiyyətcə sabit icarə ödənişlərində dəyişiklik və ya əsas aktivin alınması üzrə qiymətləndirmədə dəyişiklik baş verdikdə icarə öhdəliklərinin balans dəyəri yenidən ölçülür.

Qısamüddətli icarələr və azdəyərli aktivlərin icarələri

Qrup qısa müddətli icarənin tanınması üzrə istisnanı qısa müddətli icarələrə tətbiq edir (yəni başlanğıc tarixində icarə müddəti 12 aydan çox olmayan və alış opsionunu daxil etməyən icarələr). Qrup həmçinin azdəyərli aktivlərin tanınması üzrə istisnanı azdəyərli hesab edilən ofis avadanlığının icarəsinə tətbiq edir. Qısamüddətli icarələr üzrə icarə ödənişləri və azdəyərli aktivlərin icarələri icarə müddəti ərzində düz xətt üsulu ilə xərc kimi tanınır.

İcarənin uzadılması hüququ ilə müqavilələrin icarə müddətinin müəyyənləşdirilməsində əhəmiyyətli mühakimə

Qrup icarə müddətini icarəçi icarənin uzadılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin uzadılması hüququ ilə əhatə olunmuş müddətlər və icarəçi bu hüquqdan istifadə etməyəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin ləğv edilməsi hüququ ilə əhatə olunmuş müddətlər daxil olmaqla ləğv edilməyən müddət kimi müəyyən edir.

Qrupun istifadə hüququ olan aktivləri və icarə öhdəliklərinin balans dəyəri və dövr ərzində hərəkəti aşağıdakı kimi olmuşdur:

| | **İstifadə hüququ olan aktivlər** | **İcarə öhdəlikləri** |
|---|---|---|
| **1 yanvar 2019-cu il** | - | - |
| Keçidin təsiri | 4,552,862 | 4,256,745 |
| Əlavələr | - | - |
| Köhnəlmə xərci | (881,921) | - |
| Faiz xərci | - | 252,258 |
| Ödənişlər | - | (965,531) |
| **31 dekabr 2019-cu il** | 3,670,941 | 3,543,472 |

***23 saylı MHBŞK şərhi "Mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müəyyənlik"***

Bu şərh, mənfəət vergisinin uçotu 12 saylı "Mənfəət vergisi" adlı MUBS-un tətbiq edilməsinə təsir göstərən qeyri-müəyyənliklərlə bağlı olduğu hallarda verginin uçot qaydasını müəyyən edir, 12 saylı MUBS-un əhatə dairəsindən kənar olan vergilərə və ya tutumlara tətbiq edilmir və qeyri-müəyyən vergi uçotu ilə bağlı faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir. Şərh xüsusi olaraq aşağıdakı məsələləri əhatə edir:

- Müəssisənin qeyri-müəyyən vergi rejimini ayrı-ayrılıqda nəzərdən keçirib-keçirilməməsi;
- Vergi uçotunun vergi orqanları tərəfindən yoxlanılmasına dair müəssisənin fərziyyələri;
- Müəssisə vergiyə cəlb olunan mənfəəti (vergi zərəri), vergi bazasını, istifadə edilməmiş vergi zərərlərini, istifadə edilməmiş vergi kreditlərini və vergi dərəcələrini necə müəyyənləşdirir;
- Müəssisə fakt və şəraitlərdə dəyişiklikləri necə nəzərə alır.

Qrup, hər bir qeyri-müəyyən vergi rejimini ayrı-ayrılıqda və ya bir və ya daha çox digər qeyri-müəyyən vergi rejimi ilə birlikdə nəzərdən keçirməli olub-olmadığını müəyyənləşdirir və qeyri-müəyyənliyin həlli yollarından qabaqcadan daha yaxşı xəbər verən yanaşmanı istifadə edir.

Qrup mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müəyyənliklərin müəyyən edilməsində əhəmiyyətli mülahizələri tətbiq edir. Qrup mürəkkəb bir mühitdə fəaliyyət göstərdiyindən, şərhin konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir edib etmədiyini qiymətləndirdi. Şərhi qəbul etdikdən sonra, Qrup qeyri-müəyyən vergi mövqelərinin olub-olmamasını nəzərdən keçirmişdir. Şərh Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

***9 saylı MHBS-yə düzəlişlər "Mənfi kompensasiyanı nəzərdə tutan əvvəlcədən ödəmə növü"***

9 saylı MHBS-yə əsasən, Mənfi kompensasiyanı nəzərdə tutan əvvəlcədən ödəmə növü borc aləti amortizasiya hesablanmış dəyərlə və ya digər ümumi gəlir vasitəsilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes modeli çərçivəsində saxlanılsın. 9 saylı MHBS-yə düzəlişlər izah edir ki, müqavilənin erkən xitamı ilə nəticələnən hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq maliyyə aktivi üzrə YƏMFÖ meyarı tətbiq olunur. Bu düzəlişlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir.

**Yeni mühasibat qaydaları**

*Yeni və düzəliş edilmiş standart və şərhlər dərc olunmuşdur ki, onlar da 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan mühasibat dövrlərində və ya sonrakı dövrlərdə qüvvəyə minəcək standartlar aşağıda təqdim olunur. Qrup bu yeni və düzəliş edilmiş standart və şərhləri* müvafiq olduğu hallarda, qüvvəyə mindikdə onları tətbiq etmək niyyətindədir.

*3 saylı MHBS–yə düzəliş "Biznes" anlayışının tərifi*

2018-ci ilin oktyabr ayında MUBSK, müəssisələrə əldə edilmiş fəaliyyət növlərinin və ya aktivlərin biznesə aid olub-olmadığını müəyyən etmək üçün 3 saylı MHBS–yə "Biznes" anlayışının tərifinə düzəlişlər etmişdir. Onlar biznesin minimal tələblərini aydınlaşdırır, bazar iştirakçılarının hər hansı nəzərdən yayınan elemetlərini əvəzləyə bilmələrini dəyərləndirməyini aradan qadırır, müəssisələrə əldə edilmiş prosesin əsaslı olub olmadığını qiymətləndirilməsinə kömək etmək üçün təlimat əlavə edir, biznes və onun məhsullarının təriflərini dərinləşdirir və əlavə ədalətli dəyər konsentrasiyası testini təqdim edir. Dəyişikliklərlə yanaşı yeni illüstrativ nümunələr də verilmişdir.

Düzəlişlər prospektiv olaraq ilk tətbiqetmə zamanı və ya ondan sonra baş verən sövdələşmə və ya hadisələri əhatə etdiyi üçün Qrup keçid tarixində bu düzəlişlərlə bağlı hər hansı bir təsirə məruz qalmayacaqdır.

*1 saylı MUBS və 8 saylı MUBS-a düzəlişlər "Əhəmiyyətlilik" anlayışının tərifi*

2018-ci ilin oktyabr ayında MUBSK, standartlar arasında "əhəmiyyətlilik" anlayışını uyğunlaşdırmaq və tərifin müəyyən xüsusiyyətlərinə aydınlıq gətirmək üçün, 1 saylı *"Maliyyə Hesabatlarının təqdim edilməsi"* adlı MUBS-a və 8 saylı *"Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər"* adlı MUBS-a düzəlişlər dərc etmişdir. Yeni tərifə əsasən "məlumatın göstərilməməsi, səhv göstərilməsi və ya anlaşılmaz edilməsinin maliyyə hesabatlarının əsas istifadəçilərinin müəyyən müəssisə haqqında maliyyə məlumatı təqdim edən ümumi məqsədli maliyyə hesabatları əsasında qəbul etdikləri qərarlara təsir göstərməsinə dair əsaslı ehtimal yaranarsa, bu cür məlumat əhəmiyyətli hesab olunur".

Əhəmiyyətlilik anlayışının tərifinə edilən dəyişikliklərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməsi gözlənilmir.

*Faiz dərəcəsi etalonu islahatı: 9 saylı MHBS, 39 saylı MUBS və 7 saylı MHBS-yə düzəlişlər*

Faiz dərəcəsi etalonu islahatı: 9 saylı MHBS, 39 saylı MUBS və 7 saylı MHBS-yə düzəlişlər "faiz dərəcəsi etalonu" islahatından birbaşa təsirlənən bütün hecinq münasibətlərinə tətbiq edilən bir sıra azadetmələri əhatə edir. Hecinq münasibətləri o zaman təsirlənir ki, islahat hecinq maddəsi və ya hecinq alətinin etalona əsaslanan pul vəsaitlərinin hərəkətinin vaxtı və/və ya məbləği haqqında qeyri-müəyyənliyə səbəb olsun. Faiz dərəcəsi etalonu islahatı nəticəsində mövcud faiz dərəcəsi etalonunun alternativ və təqribən risksiz faiz dərəcəsi (RFD) ilə əvəz edilməsindən əvvəlki dövr ərzində hecinq maddəsi və ya hecinq alətinin etalona əsaslanan pul vəsaitlərinin hərəkətinin vaxtı və/və ya məbləği haqqında qeyri-müəyyənliklər yarana bilər. Bu proqnoz əməliyyatının yüksək ehtimallı olub-olmaması və hecinq münasibətinin perspektivdə yüksək dərəcədə effektiv olub-olmamasına dair qeyri-müəyyənliyə gətirib çıxara bilər.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvəyə minir, lakin müəssisələr onları daha əvvəl tətbiq etməyi seçə bilər. Düzəlişlərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsi gözlənilmir.

## 5. Xalis faiz gəliri

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| **Faiz gəlirlərinə aiddir:** | | |
| Müştərilərə verilmiş kreditlər üzrə faiz | 92,886,035 | 85,895,081 |
| Borc qiymətli kağızları üzrə faiz | 11,071,433 | 14,831,174 |
| Banklardan alınacaq vəsaitlər üzrə faiz | 5,714,928 | 7,780,398 |
| Zəmatətlər üzrə faizlər | 948,138 | 736,411 |
| Digər əməliyyatlar üzrə faizlər | 99,601 | 156,630 |
| Amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri üzrə cəmi faiz gəliri | 110,720,135 | 109,399,694 |
| **Faiz xərcinə aiddir:** | | |
| Müştəri hesabları üzrə faiz | (13,654,392) | (15,663,157) |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər üzrə faiz | (5,719,692) | (7,494,861) |
| İcarə öhdəliyi üzrə faiz | (252,258) | - |
| Amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri üzrə cəmi faiz xərci | (19,626,342) | (23,158,018) |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatdan əvvəl xalis faiz gəliri** | **91,093,793** | **86,241,676** |

## 6. Kredit zərəri xərci və digər dəyərsizləşmə və ehtiyatlar

Faiz hesablanan aktivlər üzrə kredit zərəri xərcinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | Forfeytinq | İnvestisiya qiymətli kağızları | Banklardan alınacaq vəsaitlər | Müştərilərə verilmiş kreditlər | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2017** | **(91,799)** | **-** | **(417,914)** | **(111,837,455)** | **(112,347,168)** |
| 9 aylı MHBS-nin qəbul edilməsinin təsiri | - | (160,137) | 413,735 | 7,961,997 | 8,215,595 |
| **9 saylı MHBS əsasında yenidən hesablanmış ilkin qalıq** | **(91,799)** | **(160,137)** | **(4,179)** | **(103,875,458)** | **(104,131,573)** |
| (Ehtiyat) / ehtiyatın bərpası | 91,799 | 74,346 | (128,137) | (24,931,120) | (24,893,112) |
| Aktivlərin silinməsi | - | - | - | 10,531,689 | 10,531,689 |
| **31 dekabr 2018** | **-** | **(85,791)** | **(132,316)** | **(118,274,889)** | **(118,492,996)** |
| (Ehtiyat) / ehtiyatın bərpası | - | (3,723) | 120,177 | (27,866,587) | (27,750,133) |
| Aktivlərin silinməsi | - | - | - | 7,955,921 | 7,955,921 |
| **31 dekabr 2019** | **-** | **(89,514)** | **(12,139)** | **(138,185,555)** | **(138,287,208)** |

Zəmanətlər və digər öhdəliklər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatlarda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Zəmanətlər və digər öhdəliklər |
|---|---|
| **31 dekabr 2017** | **(203,376)** |
| 9 aylı MHBS-nin qəbul edilməsinin təsiri | 67,139 |
| **9 saylı MHBS əsasında yenidən hesablanmış ilkin qalıq** | **(136,237)** |
| Ehtiyatın bərpası | 53,171 |
| Silinmə | 21,363 |
| **31 dekabr 2018** | **(61,703)** |
| Ehtiyatın bərpası | 21,553 |
| Silinmə | - |
| **31 dekabr 2019** | **(40,150)** |

## 7. Haqq və komissiya gəlir və xərcləri

Haqq və komissiya gəlir və xərclərinə aiddir:

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Hesablaşmalar | 3,327,920 | 1,622,754 |
| Nağd pul əməliyyatları | 2,419,900 | 1,425,163 |
| Plastik kartlar üzrə əməliyyatlar | 2,270,894 | 1,647,636 |
| Akkreditivlər | 75,508 | 99,734 |
| Zəmanət məktubları | 69,160 | 61,310 |
| Forfeytinq | - | 1,514,622 |
| Xarici valyuta əməliyyatları | - | 882,441 |
| Digər | 272,978 | 309,985 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **8,436,360** | **7,563,645** |
| **Haqq və komissiya xərcləri:** | | |
| Plastik kartlar üzrə əməliyyatlar | (1,758,313) | (1,491,476) |
| Hesablaşmalar | (566,555) | (659,360) |
| Nağd pul əməliyyatları | (97,521) | (199,130) |
| Akkreditivlər | (36,995) | (55,353) |
| Digər | (676,028) | (780,554) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(3,135,412)** | **(3,185,873)** |
| **Xalis haqq və komissiya gəlirləri** | **5,300,948** | **4,377,772** |

## 8. Xarici valyuta əməliyyatları üzrə xalis gəlir

Xarici valyuta əməliyyatları üzrə xalis gəlirə aiddir:

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| Dilinq əməliyyatları üzrə fərqlər, xalis | 2,786,740 | 2,185,977 |
| Məzənnə fərqləri, xalis | 4,086,781 | (297,371) |
| **Cəmi xarici valyuta əməliyyatları üzrə xalis gəlir** | **6,873,521** | **1,888,606** |

## 9. Qiymətli metal əməliyyatları üzrə xalis gəlir / (zərər)

Qiymətli metal əməliyyatları üzrə xalis gəlirə / (zərər) aiddir:

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| Qiymətli metal əməliyyatları üzrə xalis gəlir | 11,041 | 4,211 |
| Qiymətli metalın mübadiləsi ilə bağlı məzənnə fərqləri | 2,610,841 | (215,416) |
| **Cəmi qiymətli metal əməliyyatları üzrə xalis gəlir / (zərər)** | **2,621,882** | **(211,205)** |

## 10. İşçilər üzrə xərclər, ümumi və inzibati xərclər

İşçilər üzrə xərclər, ümumi və inzibati xərclər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | (20,443,427) | (17,497,906) |
| Sosial sığorta xərcləri | (3,269,464) | (3,741,639) |
| İşçilərlə bağlı digər xərclər | (489,022) | (316,284) |
| **Cəmi işçilər üzrə xərclər** | **(24,201,913)** | **(21,555,829)** |
| | | |
| Azərbaycan Respublikası Depozit Sığorta Fonduna ödənişlər | (3,655,722) | (3,758,078) |
| Peşəkar xidmət haqları | (1,463,825) | (752,023) |
| Mənfəət vergisindən başqa vergilər | (1,211,779) | (1,138,598) |
| Təhlükəsizlik məsrəfləri | (1,158,192) | (990,763) |
| Üzvlük haqları | (902,692) | (1,154,379) |
| Təmir və texniki xidmət xərcləri | (770,289) | (787,629) |
| Reklam və marketinq xərcləri | (658,791) | (650,228) |
| Nəqliyyat və ezamiyyət xərcləri | (541,642) | (470,639) |
| Nümayəndəlik | (528,223) | (269,276) |
| Rabitə | (445,082) | (395,729) |
| Sığorta | (430,155) | (352,219) |
| Kommunal xərclər | (371,383) | (341,921) |
| Dəftərxana ləvazimatları üçün xərclər | (340,916) | (222,194) |
| Əməliyyat lizinqi | (262,319) | (1,282,215) |
| Digər xərclər | (620,137) | (1,005,617) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(13,361,147)** | **(13,571,508)** |

## 11. Mənfəət vergisi

Qrup və onun filialları vergi hesabatlarını fəaliyyət göstərdiyi ölkənin yerli vergi qanunvericiliyi əsasında hazırlayır ki, bu da Maliyyə Hesabatının Beynəlxalq Standartlarından fərqlənə bilər.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Qrupa müəyyən daimi vergi fərqləri təsir edir. Yerli vergi dərəcəsi 20%-dir.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədi üçün aktiv və öhdəliklərin balans dəyərləri ilə vergi məqsədləri üçün istifadə olunan məbləğlər arasında müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə müvəqqəti fərqlər əsasən, gəlirlərin və xərclərin müxtəlif tanınma üsullarına və bəzi aktivlərin qeyd edilmiş dəyərlərinə əsaslanır.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| **Çıxılan müvəqqəti fərqlər:** | | |
| Müştərilərə verilmiş kreditlər | 32,369,443 | 19,188,248 |
| Digər öhdəliklər | 7,615,055 | 3,383,366 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya | 696,780 | 585,880 |
| İnvestisiya qiymətli kağızları | 89,514 | 85,790 |
| **Cəmi çıxılan müvəqqəti fərqlər** | 40,770,792 | 23,243,284 |
| **Vergiyə cəlb olunan müvəqqəti fərqlər:** | | |
| Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər | (16,956,895) | (12,423,595) |
| Qiymətli metallar | (10,755,542) | (8,142,647) |
| Banklardan alınacaq vəsaitlər | (546,489) | (336,959) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | (379,437) | (107,645) |
| Digər aktivlər | (17,855,588) | (14,172,038) |
| **Cəmi vergiyə cəlb olunan müvəqqəti fərqlər** | (46,493,951) | (35,182,884) |
| Xalis təxirə salınmış (cəlb olunmalı) / çıxılmalı müvəqqəti fərqlər | (5,723,159) | (11,939,600) |
| Yerli vergi dərəcəsi ilə (20%) xalis təxirə salınmış vergi öhdəliyi | (1,144,632) | (2,387,920) |
| **Xalis təxirə salınmış vergi öhdəliyi** | **(1,144,632)** | **(2,387,920)** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə bitən illər üzrə vergi xərcləri və maliyyə mənfəəti arasındakı əlaqə aşağıda izah olunur:

| | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət | **36,778,222** | **31,579,667** |
| Yerli vergi dərəcəsi ilə vergi 20% | 7,355,644 | 6,315,933 |
| Daimi fərqlərin vergiyə təsiri | 112,361 | 38,054 |
| **Mənfəət vergisi xərci** | **7,468,005** | **6,353,987** |
| Cari mənfəət vergisi xərci | 8,711,293 | 7,080,319 |
| Təxirə salınmış mənfəət vergisi xərci | (1,243,288) | (726,332) |
| **Mənfəət vergisi xərci** | **7,468,005** | **6,353,987** |

| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| **Dövrün əvvəlinə** | **(2,387,920)** | **(1,457,705)** |
| 9 aylı MHBS-nin qəbul edilməsinin təsiri | - | (1,656,547) |
| Mənfəətə daxil edilən dövr üzrə mənfəət vergisi öhdəliyinə dəyişiklik | 1,243,288 | 726,332 |
| **Dövrün sonuna** | **(1,144,632)** | **(2,387,920)** |

## 12. Hər səhm üzrə gəlir

Hər səhm üzrə gəlir aşağıdakı kimi hesablanır:

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il |
|---|---|---|
| **Mənfəət:** | | |
| İl ərzində xalis mənfəət | 29,304,206 | 25,221,584 |
| Hər səhm üzrə əsas adi səhmlərin hesablanmış orta sayı | 3,630,300 | 3,630,300 |
| **Hər səhm üzrə gəlir – əsas və azaldılmış (AZN)** | **8.072** | **6.948** |

## 13. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| Kassada olan pul vəsaitləri | 86,239,162 | 42,947,648 |
| Azərbaycan Respublikası Mərkəzi Bankındakı müxbit hesablar | 72,097,863 | 40,119,798 |
| Digər banklardakı müxbit hesablar | 175,467,239 | 85,595,281 |
| Azərbaycan Respublikası Mərkəzi Bankında müddəti 90 günədək olan müddətli depozitlər | 30,169,494 | 109,546,785 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **363,973,758** | **278,209,512** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə daxil edilən hesablanmış faiz gəliri müvafiq olaraq 114,585 AZN və 266,290 AZN olmuşdur.

GKZ-nin ölçülməsi məqsədilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri qalıqları Mərhələ 1-ə aid edilmişdir. Bu qalıqlar üzrə GKZ məbləği əhəmiyyətli olmadığından Qrup pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kredit zərəri üzrə ehtiyat yaratmamışdır.

## 14. Kredit təşkilatlarından alınacaq vəsaitlər

Kredit təşkilatlarından alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| Digər banklardakı kreditlər və müddətli depozitlər | 16,675,487 | 40,890,716 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankındakı məcburi ehtiyat | 10,677,416 | 10,156,520 |
| Məhdudiyyət qoyulmuş depozitlər | 9,044,991 | 15,525,045 |
| | **36,397,894** | **66,572,281** |
| Dəyərsizləşmə üçün ehtiyat çıxılmaqla | (12,139) | (132,316) |
| **Cəmi kredit təşkilatlarından alınacaq vəsaitlər** | **36,385,755** | **66,439,965** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə kredit təşkilatlarından alınacaq vəsaitlərə daxil edilən hesablanmış faiz gəliri müvafiq olaraq 79,467 AZN və 63,054 AZN olmuşdur.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə bank buraxılmış zəmanətlər üzrə bloklanmış depozitlərin, eləcə də plastik kartlarla əməliyyatlar və pul köçürmələri üzrə müvafiq olaraq 9,044,991 AZN və 15,525,045 AZN məbləğində vəsaitləri məhdudlaşdırmışdır.

31 dekabr 2019-cu il tarixində başa çatan il ərzində kredit təşkilatlarından alınacaq vəsaitlər üzrə ümumi balans dəyərində və müvafiq GKZ üzrə ehtiyat məbləğində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə ümumi balans dəyəri** | **66,572,281** | **-** | **-** | **66,572,281** |
| Verilmiş yeni aktivlər | 32,388,574 | - | - | **32,388,574** |
| Aktivlərin qaytarılması | | | | |
| - *Əsas məbləğ* | *(66,473,640)* | - | - | ***(66,473,640)*** |
| - *Faiz məbləği* | *(383,119)* | - | - | ***(383,119)*** |
| Hesablanmış faiz | 398,979 | - | - | **398,979** |
| Silinmiş məbləğlər | - | - | - | - |
| Məzənnə fərqi | 3,894,819 | - | - | **3,894,819** |
| **31 dekabr 2019** | **36,397,894** | **-** | **-** | **36,397,894** |

| | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə GKZ** | **(132,316)** | **-** | **-** | **(132,316)** |
| Verilmiş yeni aktivlər | (11,621) | - | - | **(11,621)** |
| Aktivlərin qaytarılması | | | | |
| - *Əsas məbləğ* | *132,072* | - | - | ***132,072*** |
| - *Faiz məbləği* | *15* | - | - | ***15*** |
| Hesablanmış faiz | (20) | - | - | **(20)** |
| GKZ hesablamalarında istifadə edilən model və giriş məlumatlarında dəyişikliklər | *25* | - | - | ***25*** |
| Silinmiş məbləğlər | - | - | - | - |
| Məzənnə fərqi | (294) | - | - | **(294)** |
| **31 dekabr 2019** | **(12,139)** | **-** | **-** | **(12,139)** |

31 dekabr 2018-ci il tarixində başa çatan il ərzində kredit təşkilatlarından alınacaq vəsaitlər üzrə ümumi balans dəyərində və müvafiq GKZ üzrə ehtiyat məbləğində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2018 tarixinə ümumi balans dəyəri** | **62,650,798** | **-** | **-** | **62,650,798** |
| Verilmiş yeni aktivlər | 32,696,157 | - | - | **32,696,157** |
| Aktivlərin qaytarılması | | | | |
| *- Əsas məbləğ* | *(27,015,195)* | - | - | ***(27,015,195)*** |
| *- Faiz məbləği* | *(292,941)* | - | - | ***(292,941)*** |
| Hesablanmış faiz | 347,318 | - | - | **347,318** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| Məzənnə fərqi | (1,813,856) | - | - | **(1,813,856)** |
| **31 dekabr 2018** | **66,572,281** | **-** | **-** | **66,572,281** |

| | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2018 tarixinə GKZ** | **(4,179)** | **-** | **-** | **(4,179)** |
| Verilmiş yeni aktivlər | (130,702) | - | - | **(130,702)** |
| Aktivlərin qaytarılması | | | | |
| *- Əsas məbləğ* | *2,640* | - | - | ***2,640*** |
| *- Faiz məbləği* | *4,931* | - | - | ***4,931*** |
| Hesablanmış faiz | (4,932) | - | - | **(4,932)** |
| GKZ hesablamalarında istifadə edilən model və giriş məlumatlarında dəyişikliklər | (235) | - | - | **(235)** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| Məzənnə fərqi | 161 | - | - | **161** |
| **31 dekabr 2018** | **(132,316)** | **-** | **-** | **(132,316)** |

## 15. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2019 | 31 dekabr 2018 |
|---|---|---|
| Korporativ müştərilərə verilmiş kreditlər | 1,294,799,422 | 1,242,821,009 |
| Fiziki şəxslərə verilmiş kreditlər | 610,185,244 | 207,664,914 |
| **Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş ümumi kreditlər** | **1,904,984,666** | **1,450,485,923** |
| Dəyərsizləşmə üçün ehtiyat çıxılmaqla | (138,185,555) | (118,274,889) |
| **Cəmi amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər** | **1,766,799,111** | **1,332,211,034** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə müştərilərə verilmiş kreditlərə daxil edilən hesablanmış faiz gəliri müvafiq olaraq 62,302,640 AZN və 53,889,819 AZN təşkil etmişdir.

31 dekabr 2019-cu il tarixində başa çatan il ərzində korporativ müştərilərə verilmiş kreditlər üzrə ümumi balans dəyərində və müvafiq GKZ üzrə ehtiyat məbləğində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| *Korporativ müştərilərə* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə ümumi balans dəyəri** | **959,711,470** | **-** | **283,109,539** | **1,242,821,009** |
| Verilmiş yeni aktivlər | 486,207,790 | - | 5,747,158 | **491,954,948** |
| Aktivlərin qaytarılması | | | | |
| *- Əsas məbləğ* | *(419,708,954)* | - | *(32,041,642)* | ***(451,750,596)*** |
| *- Faiz məbləği* | *(51,848,211)* | - | *(6,070,899)* | ***(57,919,110)*** |
| 1-ci Mərhələyə keçirilmələr | 14,331,316 | - | (14,331,316) | - |
| 2-ci Mərhələyə keçirilmələr | (1,733,402) | 1,733,402 | - | - |
| 3-cü Mərhələyə keçirilmələr | (107,923) | - | 107,923 | - |
| Hesablanmış faiz | 51,509,465 | - | 23,995,979 | **75,505,444** |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | (3,895,083) | **(3,895,083)** |
| Məzənnə fərqi | (401,124) | - | (1,516,066) | **(1,917,190)** |
| **31 dekabr 2019** | **1,037,960,427** | **1,733,402** | **255,105,593** | **1,294,799,422** |

| *Korporativ müştərilərə* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə GKZ** | **(861,366)** | **-** | **(91,861,290)** | **(92,722,656)** |
| Verilmiş yeni aktivlər | (417,221) | - | (2,712,448) | **(3,129,669)** |
| Aktivlərin qaytarılması | | | | |
| *- Əsas məbləğ* | *676,081* | - | *4,806,429* | ***5,482,510*** |
| *- Faiz məbləği* | *120,929* | - | *1,258,574* | ***1,379,503*** |
| 1-ci Mərhələyə keçirilmələr | (11,679) | - | 11,679 | - |
| 2-ci Mərhələyə keçirilmələr | 50,955 | (50,955) | - | - |
| 3-cü Mərhələyə keçirilmələr | 16,389 | - | (16,389) | - |
| Dövr ərzində mərhələlər arasında köçürülməyə məruz qalmaların dövrün sonuna olan GKZ üzərində təsir. | (55,954) | - | 2,124,402 | **2,068,448** |
| Hesablanmış faiz | (126,856) | - | (13,873,384) | **(14,000,240)** |
| GKZ hesablamalarında istifadə edilən model və giriş məlumatlarında dəyişikliklər | (1,829,280) | - | (19,637,315) | **(21,466,595)** |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | 3,895,083 | **3,895,083** |
| Məzənnə fərqi | 235 | - | 18,303 | **18,538** |
| **31 dekabr 2019** | **(2,437,767)** | **(50,955)** | **(115,986,356)** | **(118,475,078)** |

31 dekabr 2019-cu il tarixində başa çatan il ərzində fiziki şəxslərə verilmiş kreditlər üzrə ümumi balans dəyərində və müvafiq GKZ üzrə ehtiyat məbləğində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| *Fiziki şəxslərə* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə ümumi balans dəyəri** | **168,131,727** | **610,538** | **38,922,649** | **207,664,914** |
| Verilmiş yeni aktivlər | 552,614,146 | 101,197 | 10,394 | **552,725,737** |
| Aktivlərin qaytarılması | | | | |
| - *Əsas məbləğ* | *(143,035,566)* | *(162,773)* | *(5,962,495)* | ***(149,160,834)*** |
| - *Faiz məbləği* | *(13,422,266)* | *(44,486)* | *(1,008,815)* | ***(14,475,567)*** |
| 1-ci Mərhələyə keçirilmələr | 983,877 | (261,506) | (722,371) | - |
| 2-ci Mərhələyə keçirilmələr | (359,133) | 359,133 | - | - |
| 3-cü Mərhələyə keçirilmələr | (753,274) | (202,483) | 955,757 | - |
| Hesablanmış faiz | 14,136,500 | 48,692 | 3,195,399 | **17,380,591** |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | (4,060,838) | **(4,060,838)** |
| Məzənnə fərqi | 112,975 | (1) | (1,733) | **111,241** |
| **31 dekabr 2019** | **578,408,986** | **448,311** | **31,327,947** | **610,185,244** |

| *Fiziki şəxslərə* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019 tarixinə GKZ** | **(848,373)** | **(102,970)** | **(24,600,890)** | **(25,552,233)** |
| Verilmiş yeni aktivlər | (251,230) | (957) | (8,024) | **(260,211)** |
| Aktivlərin qaytarılması | | | | |
| - *Əsas məbləğ* | *283,114* | *7,813* | *4,066,426* | ***4,357,353*** |
| - *Faiz məbləği* | *53,461* | *4,114* | *409,291* | ***466,866*** |
| 1-ci Mərhələyə keçirilmələr | (2,749) | 1,825 | 924 | - |
| 2-ci Mərhələyə keçirilmələr | 56,679 | (56,679) | - | - |
| 3-cü Mərhələyə keçirilmələr | 233,445 | 73,399 | (306,844) | - |
| Dövr ərzində mərhələlər arasında köçürülməyə məruz qalmaların dövrün sonuna olan GKZ üzərində təsir. | (339,941) | 11,658 | 259,111 | **(69,172)** |
| Hesablanmış faiz | (55,177) | (5,762) | (2,200,324) | **(2,261,263)** |
| GKZ hesablamalarında istifadə edilən model və giriş məlumatlarında dəyişikliklər | 575,296 | 5,217 | (1,034,902) | **(454,389)** |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | 4,060,838 | **4,060,838** |
| Məzənnə fərqi | 1 | - | 1,733 | **1,734** |
| **31 dekabr 2019** | **(295,474)** | **(62,342)** | **(19,352,661)** | **(19,710,477)** |

31 dekabr 2018-ci il tarixində başa çatan il ərzində korporativ müştərilərə verilmiş kreditlər üzrə ümumi balans dəyərində və müvafiq GKZ üzrə ehtiyat məbləğində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| *Korporativ müştərilərə* | *Mərhələ 1* | *Mərhələ 2* | *Mərhələ 3* | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2018 tarixinə ümumi balans dəyəri** | **757,673,714** | **2,561,093** | **406,433,567** | **1,166,668,374** |
| Verilmiş yeni aktivlər | 544,985,632 | - | 32,286,590 | **577,272,222** |
| Aktivlərin qaytarılması | | | | |
| - *Əsas məbləğ* | *(342,101,160)* | *(115,746)* | *(164,722,992)* | ***(506,939,898)*** |
| DE | *Defolt ehtimalı* müəyyən vaxt civarında defoltun mümkünlüyünun qiymətləndirilməsidir. Defolt, təhlil edilən müddət ərzində müəyyən anda yalnız müvafiq vəsait daha əvvəl uçotdan çıxarılmamış və hələ də portfelə daxil olanda yarana bilər. |
| DHRH | *Defolt halında riskin həcmi*, müqavilədə nəzərdə tutulub-tulmamasından asılı olmayaraq, əsas və faiz məbləğlərinin qaytarılması, kredit öhdəliyi üzrə gözlənilən vəsaitlərin istifadəsi və yerinə yetirilməmiş ödənişlər üzrə hesablanmış faiz də daxil olmaqla hesabat tarixindən sonra risk həcmində gözlənilən dəyişikliyi nəzərə almaqla gələcək defolt tarixində risk həcminin qiymətləndirilməsidir. |
| DHZ | *Defolt halında zərər* müəyyən zaman defolt yarananda əmələ gələn zərərin qiymətləndirilməsidir. Bu, müqavilə ilə nəzərdə tutulmuş ödəniləcək pul vəsaitləri ilə kreditorun əldə etməyi gözlədiyi (o cümlədən hər hansı girovun realizasiyasından) pul vəsaitləri arasındakı fərqə əsaslanır. Bu, adətən DHZ faizi kimi ifadə edilir. |

GKZ ehtiyatı aktivin müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (AMəGKZ) əsaslanır. Lakin əmələ gəldiyi andan kredit riskində əhəmiyyətli artım olmadığı hallarda ehtiyat 12 aylıq gözlənilən kredit zərərinə (12aGKZ) əsaslanır. 12aGKZ hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə aləti ilə bağlı öhdəliklərin yerinə yetirilməməsindən irəli gələn GKZ-dən ibarətdir.

Hər hesabat dövrünün sonunda Qrup, maliyyə alətinin qalan müddəti üzrə öhdəliklərin yerinə yetirilməməsi (defolt) riskindəki dəyişiklikləri nəzərdən keçirməklə, maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli artıb-artmamasının qiymətləndirilməsi siyasətini tətbiq etmişdir. Yuxarıdakı prosesə əsaslanaraq, Qrup kreditləri Mərhələ 1, Mərhələ 2, Mərhələ 3 və AYKD üzrə aşağıdakı kimi qruplaşdırır:

| | |
|---|---|
| Mərhələ 1: | Kreditlər ilk dəfə tanınanda, Qrup ehtiyatı 12aGKZ əsasında tanıyır. Mərhələ 1-in kreditlərinə həm də kredit riskinin azaldığı Mərhələ 2 və Mərhələ 3-dən yenidən təsnif edilmiş vəsaitlər daxildir. |
| Mərhələ 2: | Kredit verildiyi andan etibarən kredit riski əhəmiyyətli dərəcədə artanda Qrup ehtiyatı AMəGKZ üzrə tanıyır. |
| Mərhələ 3: | Dəyərsizləşmiş hesab olunan kreditlər. Qrup ehtiyatı AMəGKZ üzrə tanıyır. |
| AYKD: | Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (AYKD) ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləridir. AYKD aktivləri ilkin tanınmada ədalətli dəyərlə qeydə alınır və faiz gəliri sonradan krediti nəzərə almaqla düzəliş edilmiş EFD əsasında tanınır. GKZ yalnız gözlənilən kredit zərərlərində sonradan dəyişiklik baş verəndə tanınır və ya ləğv edilir. |

*Defolt və sağalmanın tərifi*

Maliyyə alətinin dəyərsizləşməsi hadisəsi pərakəndə borcalanlar portfeli istisna olmaqla, bütün portfellər üçün borcalan səviyyəsində müəyyən edilir. Pərakəndə borcalanlar üçün dəyərsizləşmə hadisəsi maliyyə aləti səviyyəsində müəyyən edilir. Qrup, maliyyə aktivinin aşağıdakı hallarda defoltda olmasını hesab edir:

- Maliyyə təşkilatları və qiymətli kağızların emitentləri ilə əməliyyatlardan başqa, bütün seqmentlər üçün hesabat tarixinə borcun 90 təqvim günündən artıq gecikdirilməsi;
- Maliyyə təşkilatları və qiymətli kağızların emitentləri ilə əməliyyatlar üçün hesabat tarixinə borcun 7 iş günündən artıq gecikdirilməsi;
- Kontragent / emitent məhkəmə tərəfindən müflis elan edilib və ya məhkəmə Borcalanla bağlı müflislik prosedurları aparıb. Bu meyar pərakəndə borcalanlar portfeli istisna olmaqla, bütün portfellər üçün tətbiq edilir;
- Hesabat tarixinə müqaviləyə 4 və ya 5-ci keyfiyyət kateqoriyasının təyin edilməsi;
- Borcalanın maliyyə çətinliyi ilə əlaqədar defolt / məcburi restrukturizasiyanın aparılması (maliyyə təşkilatları və qiymətli kağızların emitentləri ilə əməliyyatlar istisna olmaqla tətbiq edilir). Defolt/məcburi restrukturizasiya dedikdə, borcalanın müqavilədə nəzərdə tutulan öhdəliklərini yerinə yetirə bilməməsi və borcalanın kredit keyfiyyətinin pisləşməsi nəticəsində Qrupun səlahiyyətli orqanı tərəfindən məcburi restrukturizasiya hesab edilən müqavilə şərtlərinin dəyişdirilməsi başa düşülür;
- Lisenziyanın ləğvi və müvəqqəti inzibatçılığın tətbiqi (maliyyə təşkilatlarına və qiymətli kağızların emitentlərinə tətbiq olunur).

İlkin tanınmaya nisbətən kredit riskində əhəmiyyətli dərəcədə artım olmadığını göstərən bir sübut varsa, itki norması maliyyə aləti üzrə 12 aylıq GKZ-yə qayıdır. Kredit riski artımının bəzi keyfiyyət göstəriciləri, məsələn, sui-istifadə halları artan defolt risk göstəricisi ola bilər ki, bu da həmin göstərici yox olandan sonra da mövcud ola bilir. Bu cür hallarda, Qrup, maliyyə aktivinin kredit riskinin kifayət qədər aşağı düşdüyünü nümayiş etdirən yaxşı davranışı göstərmək üçün sınaq müddəti müəyyən edir ki, onlar kredit riskinin əhəmiyyətli dərəcədə aşağı düşdüyünü sübut edə bilsinlər. Maliyyə alətlərinin sağlamlaşması və 1-ci Mərhələyə keçirilməsi meyarları:

- Pərakəndə borcalanlar üçün üç ardıcıl hesabat ayında gecikmiş borcların olmaması;
- Korporativ kontragentlər və fərdi sahibkarlar üçün on iki ardıcıl hesabat ayında gecikmiş borcların olmaması.

*Defolt ehtimalının müddət strukturunun yaradılması*

Qrup, məhsulun növü ilə bağlı kredit riskinə dair mövcud məlumatları və göstəriciləri həmçinin borcalanın seqmenti ilə bağlı məlumatları toplayır. Bəzi portfellər üçün xaricdə kredit məlumat agentliklərindən əldə edilən məlumatlar da istifadə olunur.

Qrup, toplanan məlumatları təhlil etmək və qalan müddət ərzində defolt ehtimalının təxminlərini yaratmaq üçün və bunun zaman keçdikcə necə dəyişəcəyini göstərən statistik modelləri tətbiq edir.

*Xəzinədarlıq və banklararası münasibətlər*

Qrupun xəzinədarlığı və banklararası münasibətlər və qarşı tərəfləri maliyyə xidmətləri müəssisələri, banklar, broker-dilerlər, mübadilə və klirinqləri özündə ehtiva edir. Bu münasibətlər üçün Qrupun kredit riskləri şöbəsi, içtimayətə açıq olan maliyyə və digər xarici məlumatları, məsələn, xarici reytinqləri analiz edir və aşağıda cədvəldə göstərildiyi kimi daxili reytinqi müəyyən edir.

*Korporativ və kiçik biznes kreditləri*

Korporativ kreditlər üçün borcalanlar Qrupun ixtisaslaşdırılmış kredit riski bölməsinin işçiləri tərəfindən qiymətləndirilir. Kredit riskinin qiymətləndirilməsi, müxtəlif tarixi, cari və gələcəklə bağlı məlumatları nəzərə alan kredit hesablama modelinə əsaslanır:

- Müştərinin hazırladığı proqnozlar və büdcələr daxil tarixi maliyyə məlumatları. Bu maliyyə məlumatı müştərinin maliyyə fəaliyyətini ölçmək üçün həyata keçirilmiş və gözlənilən nəticələr, ödəmə qabiliyyətinin əmsalları, likvidlik əmsalları və digər müvafiq əmsalları əhatə edir. Bu göstəricilərdən bəziləri müştərilərlə razılaşmaları əhatə edir və buna görə də daha böyük diqqətlə ölçülür.
- Müştərilərə dair xarici mənbələrdən gələn istənilən ictimaiyyətə açıq məlumat. Bu reytinq agentlikləri tərəfindən verilmiş xarici reytinq cədvəllərini, müstəqil analitik hesabatları, ictimaiyyətə satılan qiymətli kağızların qiymətləri və ya press-relizlər (mətbuat açıqlamaları) və məqalələri əhatə edir.
- Şirkətin fəaliyyətinə aid olan və müştərinin rəhbərliyinin keyfiyyət və qabiliyyətini dəstəkləyən istənilən başqa obyektiv məlumatlar.

Qiymətləndirmə metodlarının kompleksliyi və dəqiqliyi Qrupun təsir gücü və müştərinin mürəkkəbliyi və ölçüsünə əsaslanır. Daha az kompleks kiçik biznes kreditlərindən bəziləri Qrupun pərakəndə məhsullar üzrə modelləri ilə qiymətləndirilir.

*İstehlakçı kreditləri və yaşayış sahələri üçün verilən ipoteka kreditləri*

İstehlak kreditləri təminatsız fərdi kreditlər, kredit kartları və overdraftlardan ibarətdir. Bu məhsullar yaşayış sahələri üçün verilən ipoteka kreditləri və daha az kompleks kiçik biznes kreditləri ilə birlikdə əsasən borcun gəlirə, krediin dəyərə və gəlirə ödəniş əmsalları ilə idarə olunan avtomatlaşdırılmış kart sistemi vasitəsi ilə qiymətləndirilir.

Qrupun daxili kredit reytinq dərəcələri aşağıdakı kimidir:

| *Daxili reytinq dərəcəsi* | *Beynəlxalq kənar reytinq agentliyinin (Fitch) reytinqi* | *Daxili reytinqin təsviri* | *Aktivin müddəti ərzində DE* |
|---|---|---|---|
| | AA+ to AAA | | |
| | AA | | |
| >13 | A+ to AA- | Yüksək reytinq | 0 - 0.13% |
| | A- | | |
| | BBB+ | | |
| | BBB | | |
| | BBB- | | |
| 8-13 | BB+ | Standart reytinq | 0.13 - 2.09% |
| | BB- to BB | | |
| | B- to B+ | | |
| 4-8 | CCC | Qeyri-standart reytinq | 2.09 - 100% |
| | CCC- | | |
| <4 | D | Dəyərsizləşmiş | 100% |

*GKZ-nin ölçülməsi*

GKZ-nin ölçülməsinə daxil edilən əsas məlumatlar aşağıdakı dəyişənlərin müvəqqəti faiz dərəcəsidir:

- Defolt ehtimalı (DE);
- Defolt halında zərər (DHZ);
- Defolt halında riskin həcmi (DHRH).

1-ci Mərhələdəki riskin həçmi üçün GKZ, 12 aylıq DE-ni DHZ və DHRH-ın hasili ilə hesablanır. aktivin müddəti ərzində olan GKZ, aktivin müddəti ərzində olan DE-nin, DHZ-nin və DHRH-ın hasilindən hesablanır.

DE-nin qiymətləndirilməsi metodikası yuxarıda " Defolt Ehtimalının müddət strukturunun yaradılması" başlığı altında müzakirə olunur.

Bank DHZ parametrlərini defolt olmuş kontragentlərə qarşı iddiaların bərpa tarixinə əsasən qiymətləndirir. DHZ modelləri, hər seqmentdə default müştərilər üçün əsas məbləğ və faiz dərəcələrinin geri qaytarılmasını nəzərdə tutur. Korporativ portfeldə ödəniş məbləğləri müştəri bazasında hesablanır, kredit kartları və istehlak kredit portfelləri isə müqavilə səviyyəsində hesablanır. Onlar güzəştli pul vəsaitlərinin hərəkəti əsasında hesablanmışdır ki, bu, mövcud müqavilənin faiz dərəcəsi kimi effektiv faiz dərəcəsinin ən yaxşı vekseli hesab olunur. İpoteka kreditləri üçün, qiymətli kağızları qiymətləndirmək üçün risk faktorları kimi girov qiymətli kağızları tətbiq edilmişdir.

DHRH defolt halında gözlənilən təsiri təmsil edir. Bank DHRH-i qarşı tərəfə mövcud təsirdən və müqavilə üzrə icazə verilən və amortizasiya nəticəsində yaranan mövcud məbləğə potensial dəyişikliklərdən əldə edir. Maliyyə aktivinin DHRH-i defolt zamanı özünün ümumu balans dəyəridir. Borc öhdəlikləri üçün DHRH gələcək potensial miqdardır ki, bu da tarixi müşahidələrə əsasında müqavilə çərçivəsində götürülə bilər.

Yuxarıda təsvir edildiyi kimi, və Mərhələ 1 üzrə maliyyə aktivləri üçün maksimum 12 aylıq DE-dan istifadə edilməsinə baxmayaraq, Bank GKZ-ni kreditin məruz qaldığı maksimum müqavilə müddətindən (borcalanın müddətinin uzadılması variantları daxil olmaqla) kredit riskinin idarə olunması məqsədləri üçün Bank daha uzun müddət hesab edir. Maksimum müqavilə müddəti, Bankın avansın geri qaytarılmasını və ya kredit öhdəliyini ləğv etmək hüququna malik olduğu tarixə qədər uzanır.

*Kredit riskinin əhəmiyyətli artımı*

Qrup, hər bir hesabat dövründə ilkin tanınmadan sonra kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmamasını qiymətləndirir. Kredit riskinin artımının əhəmiyyətli olub-olmadığının müəyyənləşdirilməsi maliyyə alətinin və borcalanın xüsusiyyətlərinə və coğrafi bölgə ilə bağlıdır. Əhəmiyyətli sayılan faktor, müxtəlif növ kreditlər, xüsusilə korporativ və pərakəndə kreditlər arasında özünü fərqli göstərəcəkdir.

Ümumi göstərici olaraq, riskə xüsusi meylli kredit Qrupun keyfiyyət kriteriyalarına əsasən, ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmış hesab edilir:

- Maliyyə təşkilatları və qiymətli kağızların emitentləri ilə əməliyyatlardan başqa, bütün seqmentlər üçün borcun 31-90 gün gecikdirilməsi faktının mövcudluğu;
- Maliyyə təşkilatları və qiymətli kağızların emitentləri ilə əməliyyatlar üzrə borcun 1-7 iş günü gecikdirilməsi faktının mövcudluğu;
- Pərakəndə portfel üçün borcalanın digər müqavilələr üzrə borcu 90 gündən artıq gecikdirməsi faktının mövcudluğu;
- Ana şirkət və ya digər əlaqəli müəssisə tərəfindən maliyyə dəstəyinin azalması;
- Borcalana verilmiş məhsullar barədə Bank tərəfindən etibarlı neqativ məlumatın əldə edilməsi.

Gecikmə günləri, tam ödəniş alınmayan ən erkən tarixdən etibarən gün sayının hesablanması yolu ilə müəyyən edilir. Gecikmə günləri, borcalana təqdim oluna biləcək hər hansı bir güzəşt müddətini nəzərə alınmadan müəyyən edilir.

Kəmiyyət meyarları (yalnız xarici reytinqlərin mövcudluğu halında tətbiq edilir):

- Aşağıdakı cədvəldə təqdim edilmiş meyarlara uyğun olaraq, tanınma tarixinə olan xarici reytinqlə müqayisədə, hesabat tarixinə olan xarici reytinqin nisbətən dəyişməsi.

İlkin tanıma zamanı xarici reytinqdən asılı olaraq kredit riskinin əhəmiyyətli artmasının müəyyən edilməsi meyarları.

| | **İlkin tanınma zamanı kontragentin reytinqi** | | | **Kredit riskinin mühüm artması aşağıdakı kimi tanınır:** |
|---|---|---|---|---|
| | **Moody's** | **Fitch** | **S&P** | |
| 1 | AAA | AAA | AAA | |
| 2 | Aa1 | AA+ | AA+ | |
| 3 | Aa2 | AA | AA | |
| 4 | Aa3 | AA- | AA- | Aşağı kredit riski: meyarlar tətbiq edilmir |
| 5 | A1 | A+ | A+ | |
| 6 | A2 | A | A | |
| 7 | A3 | A- | A- | |
| 8 | Baa1 | BBB+ | BBB+ | |
| 9 | Baa2 | BBB | BBB | |
| 10 | Baa3 | BBB- | BBB- | |
| 11 | Ba1 | BB+ | BB+ | |
| 12 | Ba2 | BB | BB | -2 kateqoriyasına dəyişmə |
| 13 | Ba3 | BB- | BB- | |
| 14 | B1 | B+ | B+ | |
| 15 | B2 | B | B | |
| 16 | B3 | B- | B- | |
| 17 | Caa1 | | | -1 kateqoriyasına dəyişmə |
| 18 | Caa2 | CCC-C | CCC-C | |
| 19 | Caa3 | | | |
| 20 | Ca-C | | | |
| 21 | D | D | D | |

*Perspektiv məlumatlar və çox tərəfli iqtisadi ssenarilər*

Özünün GKZ modellərində, Qrup geniş səpkili perspektiv informasiyalara, o cümlədən iqtisadi məlumatlara əsaslanır:

- Real ÜDM;
- İstehlakçı Qiymətləri indeksi;
- Neft qiyməti;

Qrup bir iqtisadi ssenari hazırlayır: əsas ssenari. Bu Qrupun strateji planlaşdırma və büdcənin hazırlanması kimi digər məqsədlərlə bağlı istifadə etdiyi informasiyaya uyğunlaşdırılır. Defoltlar haqqında tarixi məlumatlar bank sistemindəki fiziki şəxslərə verilmiş cəmi kreditlər üzrə gecikmiş kreditlərin payına dair ARMB-ın (Azerbaycan Respublikası Mərkəzi Bankı) statistik məlumatlarında istifadə edir. Makroiqtisadi məlumatların təsirinin qiymətləndirilməsi ən azı illik olaraq aparılmalıdır.

Qrup bütün kredit portfeli üçün (qiymətli kağızlar portfeli, maliyyə qurumlarına olan tələblər) aparıcı göstəriciləri müəyyənləşdirərək sənədləşdirmiş, tarixi məlumatların təhlilindən istifadə edərək makroiqtisadi dəyişənlər və kredit riski və kredit itkiləri arasındakı əlaqələri qiymətləndirmişdir.

Əsas aparıcı faktor Real ÜDM-in artım proqnozudur. 31 dekabr 2019-cu il üçün istifadə olunan iqtisadi ssenarilərə Azərbaycan Respublikasının 31 dekabr 2020 -2024 illəri əhatə edən əsas göstəriciləri istifadə edilib.

| İllər | Real ÜDM-un artım səviyyəsi |
|---|---|
| 2020 | 1.68% |
| 2021 | 1.68% |
| 2022 | 1.76% |
| 2023 | 1.84% |
| 2024 | 1.92% |

Son beş ilin məlumatlarının təhlili əsasında əsas göstərici ilə maliyyə aktivlərinin müxtəlif portfeli üzrə default və zərər dərəcələri arasında təxmin edilən əlaqələr hazırlanmışdır.

*Maliyyə aktivlərinin siniflər üzrə kredit keyfiyyəti*

Maliyyə aktivlərinin kredit keyfiyyəti yuxarıda təsvir olunduğu kimi, Qrupun daxili kredit reytinqləri ilə idarə olunur. Aşağıdakı cədvəldə Qrupun kredit reytinqi sisteminə əsaslanaraq konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatın kreditlə bağlı sətirlərində aktivlərin sinifləri üzrə kredit keyfiyyəti göstərilir.

| 31 dekabr 2019 | Qeyd | | Yüksək reytinq | Standart reytinq | Qeyri-standart reytinq | Dəyərsizləşmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13 | Mərhələ 1 | 277,669,208 | 65,218 | 170 | - | **277,734,596** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 14 | Mərhələ 1 | 34,380,894 | 2,017,000 | - | - | **36,397,894** |
| Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər | 15 | | | | | | |
| -Korporativ müştərilərə verilmiş kreditlər | | Mərhələ 1 | - | 982,541,788 | 55,418,639 | - | **1,037,960,427** |
| | | Mərhələ 2 | - | - | 1,733,402 | - | **1,733,402** |
| | | Mərhələ 3 | - | - | - | 255,105,593 | **255,105,593** |
| -Fiziki şəxslərə verilmiş kreditlər | | | | | | | |
| *Avtomobil kreditləri* | | Mərhələ 1 | - | 9,615,648 | 176,167 | - | **9,791,815** |
| | | Mərhələ 2 | - | - | - | - | **-** |
| | | Mərhələ 3 | - | - | - | 83,094 | **83,094** |
| *İstehlak kreditləri* | | Mərhələ 1 | - | 17,073,564 | 48,772,540 | - | **65,846,104** |
| | | Mərhələ 2 | - | - | 12,489 | - | **12,489** |
| | | Mərhələ 3 | - | - | - | 7,252,535 | **7,252,535** |
| *İpoteka kreditləri* | | Mərhələ 1 | - | 111,389,562 | 2,003,218 | - | **113,392,780** |
| | | Mərhələ 2 | - | - | 412,278 | - | **412,278** |
| | | Mərhələ 3 | - | - | - | 4,175,928 | **4,175,928** |
| *Plastik kartlar* | | Mərhələ 1 | - | 343,337 | 1,698,844 | - | **2,042,181** |
| | | Mərhələ 2 | - | - | 23,544 | - | **23,544** |
| | | Mərhələ 3 | - | - | - | 121,566 | **121,566** |
| *Biznes kreditləri* | | Mərhələ 1 | - | 15,232,585 | 372,103,521 | - | **387,336,106** |
| | | Mərhələ 2 | - | - | - | - | **-** |
| | | Mərhələ 3 | - | - | - | 19,694,824 | **19,694,824** |
| İnvestisiya qiymətli kağızları - Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları | 16 | Mərhələ 1 | 65,562,282 | 27,448,641 | 16,792,728 | - | **109,803,651** |
| Akkreditivlər | 25 | Mərhələ 1 | 278,520 | 773,573 | - | - | **1,052,093** |
| Verilmiş maliyyə zəmanətləri | 25 | Mərhələ 1 | 4,390,000 | 10,265,945 | 475,875 | - | **15,131,820** |
| İstifadə olunmamış kredit xətləri | 25 | Mərhələ 1 | 27,535 | 168,390,674 | 3,168,413 | - | **171,586,622** |
| | | Mərhələ 2 | - | - | - | - | **-** |
| | | Mərhələ 3 | - | - | - | 13,604 | **13,604** |
| **Cəmi** | | | **382,308,439** | **1,345,157,535** | **502,791,828** | **286,447,144** | **2,516,704,946** |

| 31 dekabr 2018 | Qeyd | | Yüksək reytinq | Standart reytinq | Qeyri-standart reytinq | Dəyərsizləş-miş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13 | Mərhələ 1 | 231,398,126 | 3,855,063 | 8,675 | - | **235,261,864** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 14 | Mərhələ 1 | 47,695,724 | 18,876,556 | - | - | **66,572,281** |
| Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər | 15 | | | | | | |
| -Korporativ müştərilərə verilmiş kreditlər | | Mərhələ 1 | 68,000,000 | 809,959,255 | 81,752,215 | - | **959,711,470** |
| | | Mərhələ 2 | - | - | - | - | **-** |
| | | Mərhələ 3 | - | - | - | 283,109,539 | **283,109,539** |
| -Fiziki şəxslərə verilmiş kreditlər | | | | | | | |
| *Avtomobil kreditləri* | | Mərhələ 1 | - | 2,656,987 | 87,442 | - | **2,744,429** |
| | | Mərhələ 2 | - | - | 1,021 | - | **1,021** |
| | | Mərhələ 3 | - | - | - | 356,099 | **356,099** |
| *İstehlak kreditləri* | | Mərhələ 1 | - | 43,724,224 | 495,986 | - | **44,220,210** |
| | | Mərhələ 2 | - | - | 17,900 | - | **17,900** |
| | | Mərhələ 3 | - | - | - | 11,527,086 | **11,527,086** |
| *İpoteka kreditləri* | | Mərhələ 1 | - | 53,140,826 | 56,878,936 | - | **110,019,762** |
| | | Mərhələ 2 | - | - | 492,781 | - | **492,781** |
| | | Mərhələ 3 | - | - | - | 5,586,010 | **5,586,010** |
| *Plastik kartlar* | | Mərhələ 1 | 14,417 | 514,978 | - | - | **529,395** |
| | | Mərhələ 2 | - | 98,835 | - | - | **98,835** |
| | | Mərhələ 3 | - | - | - | 32,946 | **32,946** |
| *Biznes kreditləri* | | Mərhələ 1 | - | 10,312,277 | 305,657 | - | **10,617,934** |
| | | Mərhələ 2 | - | - | - | - | **-** |
| | | Mərhələ 3 | - | - | - | 21,420,506 | **21,420,506** |
| İnvestisiya qiymətli kağızları - Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları | 16 | Mərhələ 1 | 137,691,561 | 27,448,641 | 20,000 | - | **165,160,202** |
| Akkreditivlər | 25 | Mərhələ 1 | - | 1,701,816 | - | - | **1,701,816** |
| Verilmiş maliyyə zəmanətləri | 25 | Mərhələ 1 | - | 22,029,552 | - | - | **22,029,552** |
| İstifadə olunmamış kredit xətləri | 25 | Mərhələ 1 | 485,980 | 189,852,324 | 1,235,427 | - | **191,573,730** |
| | | Mərhələ 2 | - | 1,165 | - | - | **1,165** |
| | | Mərhələ 3 | - | - | - | 950,000 | **950,000** |
| **Cəmi** | | | **485,285,808** | **1,184,172,499** | **141,296,040** | **322,982,187** | **2,133,736,533** |

Maliyyə zəmanətləri, akkreditivlər və kredit öhdəlikləri kreditlərlə eyni qaydada qiymətləndirilir və ehtiyat ayrılır.

**Coğrafi təhlil**

Aktiv və öhdəliklərin idarəetmə komitəsi qanunvericilikdə və tənzimləyici sahələrdəki risklərlə bağlı nəzarəti həyata keçirir və onun Qrupun fəaliyyətinə təsirini müəyyənləşdirir. Bu yanaşma Qrupa Azərbaycan Respublikasının investisiya mühitindəki potensial zərərləri azaltmaq imkanı verir. Bankın Riskin İdarə edilməsi Komitəsi əsasən Müstəqil Dövlətlər Birliyi və Baltik ölkələrinin banklarına tətbiq olunan ölkə üzrə hədləri müəyyən edir.

Aktiv və öhdəliklər coğrafi cəhətdən aşağıdakı kimi cəmləşmişdir:

| | Azərbaycan Respublikası | CIS and other countries | İİƏT ölkələri | 31 dekabr 2019 Cəmi |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 214,137,967 | 433,789 | 149,402,002 | 363,973,758 |
| Qiymətli metallar | 17,515,867 | - | - | 17,515,867 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 13,940,094 | - | 22,445,661 | 36,385,755 |
| Müştərilərə verilmiş kreditlər | 1,766,799,111 | - | - | 1,766,799,111 |
| İnvestisiya qiymətli kağızları | 110,156,937 | - | 4,359 | 110,161,296 |
| Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər | 69,365,695 | - | - | 69,365,695 |
| İnvestisiya əmlakı | 7,315,000 | - | - | 7,315,000 |
| Qeyri-maddi aktivlər | 2,034,792 | - | - | 2,034,792 |
| Digər aktivlər | 56,775,929 | 78,682 | 72,784 | 56,927,395 |
| **Cəmi aktivlər** | **2,258,041,392** | **512,471** | **171,924,806** | **2,430,478,669** |
| **Öhdəliklər** | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 383,805,333 | - | - | 383,805,333 |
| Müştəri hesabları | 1,636,351,672 | - | - | 1,636,351,672 |
| Cari mənfəət vergisi öhdəliyi | 306,531 | - | - | 306,531 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 1,144,632 | - | - | 1,144,632 |
| Digər öhdəliklər | 12,586,779 | 11,061 | 96,326 | 12,694,166 |
| **Cəmi öhdəliklər** | **2,034,194,947** | **11,061** | **96,326** | **2,034,302,334** |
| **Xalis mövqe** | **223,846,445** | **501,410** | **171,828,480** | |

| | Azərbaycan Respublikası | CIS and other countries | İİƏT ölkələri | 31 dekabr 2018 Cəmi |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 192,882,568 | 1,253,034 | 84,073,910 | 278,209,512 |
| Qiymətli metallar | 14,989,411 | - | - | 14,989,411 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 17,403,531 | - | 49,036,434 | 66,439,965 |
| Müştərilərə verilmiş kreditlər | 1,332,211,034 | - | - | 1,332,211,034 |
| İnvestisiya qiymətli kağızları | 165,517,212 | - | 4,458 | 165,521,670 |
| Əmlak və avadanlıq | 66,571,711 | - | - | 66,571,711 |
| İnvestisiya əmlakı | 7,027,246 | - | - | 7,027,246 |
| Qeyri-maddi aktivlər | 1,511,655 | - | - | 1,511,655 |
| Digər aktivlər | 59,136,082 | - | 130,242 | 59,266,324 |
| **Cəmi aktivlər** | **1,857,250,450** | **1,253,034** | **133,245,044** | **1,991,748,528** |
| **Öhdəliklər** | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 376,157,633 | - | - | 376,157,633 |
| Müştəri hesabları | 1,335,034,786 | - | - | 1,335,034,786 |
| Cari mənfəət vergisi öhdəliyi | 4,159,131 | - | - | 4,159,131 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 2,387,920 | - | - | 2,387,920 |
| Digər öhdəliklər | 7,067,513 | 11 | 81,750 | 7,149,274 |
| **Cəmi öhdəliklər** | **1,724,806,983** | **11** | **81,750** | **1,724,888,744** |
| **Xalis mövqe** | **132,443,467** | **1,253,023** | **133,163,294** | |

## Likvidlik riski

Likvidlik riski depozitlərin geri götürülməsi və ödəmə müddəti çatan maliyyə alətləri ilə əlaqədar digər maliyyə öhdəliklərini ödəmək üçün vəsaitlərin kifayət olub-olmaması deməkdir. Likvidlik riskini idarə etmək üçün, Qrup aktiv/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olan müştəri və bank əməliyyatları üzrə gələcəkdə gözlənilən nağd pul vəsaitinin hərəkətinin gündəlik monitorinqini həyata keçirir. Aktiv və Öhdəliklərin İdarəetmə Komitəsi depozitlərin geri götürülməsi üçün hazır vəsaitlərinin minimal nisbətinə və gözlənilməyən məbləğlərdə geri götürmələri ödəmək üçün banklararası və digər institutlardan alınan kreditlərin minimal səviyyəsinə hədlər qoyur.

Likvidlik və faiz dərəcəsi risklərinin təhlili aşağıdakı cədvəldə verilmişdir. Cədvəldə aşağıdakı məlumatlar təqdim olunur:

(i) Qrupdan ödənişin tələb edilə bildiyi ən yaxın müddətdə maliyyə öhdəlikləri üzrə diskontlaşdırılmamış nağd vəsaitlərin (həm faiz həm də əsas nağd vəsaitlər) hərəkətinə əsaslanan qeyri-törəmə maliyyə aktivlərinin müqavilə üzrə qalan ödəniş müddəti və,

(ii) Qrup tərəfindən müxtəlif dövrlərdə daxil olması gözlənilən nağd vəsaitlər istisna olmaqla, Maliyyə aktivlərinin diskontlaşdırılmamış ödəniş müddətlərinə habelə, həmin aktivlər üzrə əldə olunacaq faizlərə əsaslanmaqla qeyri-törəmə maliyyə aktivləri üçün gözlənilən ödəniş müddəti.

| | Ölçülmüş orta effektiv faiz dərəcəsi | 1 aya qədər | 1-3 ay | 3 ay-1 il | 1-5 il | 5 ildən artıq | Qeyri-müəyyən ödəniş vaxtı | 31 dekabr 2019 Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 2.88% | 98,142,443 | - | - | - | - | - | 98,142,443 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 1.91% | - | - | 16,596,020 | - | - | - | 16,596,020 |
| Müştərilərə verilmiş kreditlər | 5.04% | 24,972,903 | 34,155,145 | 400,243,789 | 929,872,802 | 368,526,771 | - | 1,757,771,410 |
| İnvestisiya qiymətli kağızları | 5.69% | 64,923,139 | - | 35,864 | 27,524,197 | 16,564,616 | - | 109,047,816 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan aktivlər | | 89,896,042 | 34,155,145 | 416,875,673 | 957,396,998 | 385,091,387 | - | 1,883,415,246 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 265,831,315 | - | - | - | - | - | 265,831,315 |
| Qiymətli metallar | | 17,515,867 | - | - | - | - | - | 17,515,867 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 79,467 | - | - | - | - | 19,710,268 | 19,789,735 |
| Müştərilərə verilmiş kreditlər | | 2,628,237 | - | - | - | - | 6,399,464 | 9,027,702 |
| İnvestisiya qiymətli kağızları | | 666,320 | - | - | - | - | 447,159 | 1,113,479 |
| Digər aktivlər | | 3,998,109 | 50,858 | - | 40,069,548 | - | - | 44,118,515 |
| | | **380,615,357** | **34,206,003** | **416,875,673** | **997,466,546** | **385,091,387** | **26,556,891** | **2,240,811,859** |
| **Öhdəliklər** | | | | | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 1.77% | 10,000,000 | 747,699 | 108,765,230 | 43,471,080 | 149,085,873 | - | 312,069,883 |
| Müştəri hesabları | 1.37% | 18,550,767 | 187,377,160 | 551,543,638 | 352,930,274 | - | - | 1,110,401,839 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan öhdəliklər | | 28,550,767 | 188,124,859 | 660,308,868 | 396,401,354 | 149,085,873 | - | 1,422,471,722 |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | | 71,735,450 | - | - | - | - | - | 71,735,450 |
| Müştəri hesabları | | 386,607,972 | - | - | 200,000 | - | 139,141,861 | 525,949,833 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | - | 306,531 | - | - | - | 306,531 |
| Digər öhdəliklər | | 4,021,223 | 908,948 | 5,112,997 | 2,610,848 | - | - | 12,654,016 |
| Verilmiş zəmanətləri | | 5,213,724 | 1,149,707 | 33,057,883 | 5,723,716 | - | - | 45,145,031 |
| Akkreditivlər | | 278,520 | 773,573 | - | - | - | - | 1,052,093 |
| İstifadə olunmamış kredit xətləri | | 27,535 | 5,105,723 | 11,497,135 | 18,418,983 | 136,550,850 | - | 171,600,226 |
| | | **496,435,192** | **196,062,809** | **710,283,415** | **423,354,901** | **285,636,723** | **139,141,861** | **2,250,914,902** |
| Likvidlik intervalı | | (115,819,835) | (161,856,806) | (293,407,741) | 574,111,646 | 99,454,663 | | |
| Sabit dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | 61,345,275 | (153,969,714) | (243,433,195) | 560,995,645 | 236,005,513 | | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | | 61,345,275 | (153,969,714) | (243,433,195) | 560,995,645 | 236,005,513 | | |
| **Faiz dərəcəsinin məcmu həssaslıq intervalı** | | **61,345,275** | **(92,624,439)** | **(336,057,634)** | **224,938,011** | **460,943,524** | | |

| | Ölçülmüş orta effektiv faiz dərəcəsi | 1 aya qədər | 1-3 ay | 3 ay-1 il | 1-5 il | 5 ildən artıq | Qeyri-müəyyən ödəniş vaxtı | 31 dekabr 2018 Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6.95% | 127,981,664 | - | - | - | - | - | 127,981,664 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 1.64% | - | - | 36,237,662 | 4,590,000 | - | - | 40,827,662 |
| Müştərilərə verilmiş kreditlər | 5.62% | 111,756,896 | 7,957,862 | 226,196,622 | 574,526,861 | 407,854,380 | - | 1,328,292,621 |
| İnvestisiya qiymətli kağızları | 7.23% | 121,780,587 | - | 20,000 | 27,531,205 | 14,685,043 | - | 164,016,834 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan aktivlər | | 233,537,483 | 7,957,862 | 262,454,284 | 606,648,066 | 422,539,422 | - | 1,533,137,117 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 150,227,848 | - | - | - | - | - | 150,227,848 |
| Qiymətli metallar | | 14,989,411 | - | - | - | - | - | 14,989,411 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 63,054 | - | - | - | - | 25,549,249 | 25,612,303 |
| Müştərilərə verilmiş kreditlər | | 1,929,422 | - | - | - | - | 1,988,991 | 3,918,413 |
| İnvestisiya qiymətli kağızları | | - | 1,057,578 | - | - | - | 447,258 | 1,504,836 |
| Digər aktivlər | | 3,866,635 | 231,800 | - | 52,739,566 | - | - | 56,838,001 |
| | | **404,613,853** | **9,247,240** | **262,454,284** | **659,387,632** | **422,539,422** | **27,985,498** | **1,786,227,929** |
| **Öhdəliklər** | | | | | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 2.19% | 11,800,000 | 87,200,000 | 54,442,280 | 54,666,929 | 147,196,361 | - | 355,305,570 |
| Müştəri hesabları | 1.74% | 10,276,350 | 163,322,838 | 286,144,116 | 398,182,747 | - | - | 857,926,051 |
| Cəmi sabit dərəcələrlə faiz hesablanan öhdəliklər | | 22,076,350 | 250,522,838 | 340,586,396 | 452,849,676 | 147,196,361 | - | 1,213,231,621 |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | | 20,852,063 | - | - | - | - | - | 20,852,063 |
| Müştəri hesabları | | 460,547,388 | - | 1,069,254 | 200,000 | - | 15,292,093 | 477,108,735 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | - | 4,159,131 | - | - | - | 4,159,131 |
| Digər öhdəliklər | | 2,724,976 | 841,254 | 3,521,341 | - | - | - | 7,087,571 |
| Verilmiş zəmanətləri | | 3,836,589 | 2,868,543 | 20,569,143 | 19,077,547 | - | - | 46,351,823 |
| Akkreditivlər | | 1,377,600 | 324,216 | - | - | - | - | 1,701,816 |
| İstifadə olunmamış kredit xətləri | | 59,540 | 1,582,795 | 128,699,259 | 62,183,301 | - | - | 192,524,895 |
| | | **511,474,505** | **256,139,647** | **498,604,524** | **534,310,524** | **147,196,361** | **15,292,093** | **1,963,017,655** |
| Likvidlik intervalı | | (106,860,653) | (246,892,406) | (236,150,240) | 125,077,108 | 275,343,061 | | |
| Sabit dərəcəli alətlər üçün faiz dərəcəsinin həssaslıq intervalı | | 211,461,133 | (242,564,976) | (78,132,112) | 153,798,390 | 275,343,061 | | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | | 211,461,133 | (242,564,976) | (78,132,112) | 153,798,390 | 275,343,061 | | |
| **Faiz dərəcəsinin məcmu həssaslıq intervalı** | | **211,461,133** | **(31,103,843)** | **(109,235,955)** | **44,562,435** | **319,905,496** | | |

## Bazar riski

Bazar riski faiz dərəcəsi riskini, valyuta riskini və Qrupun məruz qaldığı digər qiymət risklərini əhatə edir. Qrup tərəfindən riskin ölçülməsi üsullarına və ya 2018-ci ildə məruz qaldığı risklərə heç bir dəyişiklik olmamışdır.

Qrupa daxil olan müəssisələr sabit və dəyişkən dərəcələrlə borclar aldıqlarından Qrupa faiz dərəcəsi riskinə məruz qalır. Qrup sabit və dəyişkən dərəcəli borcları qarışıq şəkildə saxlamaqla riski idarə edir.

AÖİK həmçinin faiz dərəcəsini və bazar risklərini Qrupun faiz dərəcəsi mövqeyinə uyğunlaşdırmaqla idarə edir. Həmin faiz dərəcəsi mövqeyi Qrupu müsbət faiz marjası ilə təmin edir. Aktiv və öhdəliklərin idarəetmə departamenti Qrupun hazırkı maliyyə fəaliyyətinin monitorinqini həyata keçirir, Qrupun faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun Qrupun rentabelliyinə təsirini qiymətləndirir.

Qrupun kredit müqavilələrinin əksəriyyətinə və digər maliyyə aktivlərinə və öhdəliklərinə ya dəyişkən faiz hesablanır ya da borc verənin istəyindən asılı olaraq faiz dərəcəsini dəyişmək imkanı verən bəndlər daxil edilir. Qrup faiz dərəcəsi marjasına nəzarət edir və nəticədə özünün mühüm faiz dərəcəsi riskinə və ya nağd vəsaitin axını riskinə məruz qaldığını düşünmür.

## Faiz dərəcəsi riski

Qrup bazar şəraitində mənfi dəyişikliklərdən irəli gələn potensial zərərləri vaxtaşırı qiymətləndirməklə ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Aktiv və öhdəliklərin idarəetmə departamenti Qrupun hazırkı maliyyə fəaliyyətinin monitorinqini həyata keçirir, Qrupun ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun Qrupun rentabelliyinə təsirini qiymətləndirir.

Aşağıdakı cədvəldə "dəyişkən risk üzrə ən mümkün dəyişikliklər" əsasında müəyyən edilmiş faiz dərəcəsi riskinin həssaslıq təhlili verilmişdir. Bu dəyişikliklərin dərəcəsi rəhbərlik tərəfindən müəyyən edilir və əsas idarəedici heyətə təqdim edilən risk hesabatlarına əks etdirilir.

Vergidən əvvəl mənfəətə təsiri:

| | 31 dekabr 2019 | | 31 dekabr 2018 | |
|---|---|---|---|---|
| | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** |
| **Aktivlər:** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 981,424 | (981,424) | 1,279,817 | (1,279,817) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 165,960 | (165,960) | 408,277 | (408,277) |
| Müştərilərə verilmiş kreditlər | 17,577,714 | (17,577,714) | 13,282,926 | (13,282,926) |
| İnvestisiya qiymətli kağızları | 1,090,478 | (1,090,478) | 1,640,168 | (1,640,168) |
| **Öhdəliklər:** | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | (3,120,699) | 3,120,699 | (3,553,056) | 3,553,056 |
| Müştəri hesabları | (3,120,699) | 3,120,699 | (8,579,260) | 8,579,260 |
| **Vergidən əvvəl mənfəətə xalis təsir** | **13,574,178** | **(13,574,178)** | **4,478,872** | **(4,478,872)** |

### Valyuta riski

Valyuta riski xarici valyuta məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Xarici valyuta məzənnəsindəki dəyişikliklər Qrupun maliyyə durumuna və nağd pul vəsaitlərinin hərəkətinə təsir edir.

İdarə Heyəti valyuta ilə ayırmaların səviyyələrinə hədlər qoyur. Həmçinin bu hədlər Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə uyğun olur. Xarici valyutanın mübadilə məzənnəsinin Qrupa təsiri aşağıdakı cədvəldə təqdim olunmuşdur:

| | AZN | ABŞ Dolları | Avro | Digər valyutalar | 31 dekabr 2019 Cəmi |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 126,300,276 | 201,450,981 | 10,392,134 | 25,830,367 | 363,973,758 |
| Qiymətli metallar | - | - | - | 17,515,867 | 17,515,867 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 3,651,506 | 1,272,593 | 16,786,169 | 14,675,487 | 36,385,755 |
| Müştərilərə verilmiş kreditlər | 335,577,944 | 1,335,699,770 | 95,521,397 | - | 1,766,799,111 |
| İnvestisiya qiymətli kağızları | 67,927,735 | 42,229,202 | 4,359 | - | 110,161,296 |
| Əmlak və avadanlıq | 69,365,695 | - | - | - | 69,365,695 |
| İnvestisiya əmlakı | 7,315,000 | - | - | - | 7,315,000 |
| Qeyri-maddi aktivlər | 2,034,792 | - | - | - | 2,034,792 |
| Digər aktivlər | 55,376,060 | 907,929 | 329,653 | 313,753 | 56,927,395 |
| **Cəmi aktivlər** | **667,549,008** | **1,581,560,475** | **123,033,712** | **58,335,474** | **2,430,478,669** |
| **Öhdəliklər** | | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 222,175,994 | 161,613,726 | 15,613 | - | 383,805,333 |
| Müştəri hesabları | 338,624,694 | 1,152,892,950 | 129,740,538 | 15,093,490 | 1,636,351,672 |
| Cari mənfəət vergisi öhdəliyi | 306,531 | - | - | - | 306,531 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 1,144,632 | - | - | - | 1,144,632 |
| Digər öhdəliklər | 10,582,865 | 1,311,821 | 783,497 | 15,983 | 12,694,166 |
| **Cəmi öhdəliklər** | **572,834,716** | **1,315,818,497** | **130,539,648** | **15,109,473** | **2,034,302,334** |
| **Açıq valyuta mövqeyi** | **94,714,292** | **265,741,978** | **(7,505,936)** | **43,226,001** | |

| | AZN | ABŞ Dolları | Avro | Digər valyutalar | 31 dekabr 2018 Cəmi |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 172,318,655 | 30,101,064 | 73,770,026 | 2,019,767 | 278,209,512 |
| Qiymətli metallar | - | - | - | 14,989,411 | 14,989,411 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 6,873,294 | 11,897,966 | 12,243,973 | 35,424,732 | 66,439,965 |
| Müştərilərə verilmiş kreditlər | 257,192,027 | 1,025,730,529 | 49,288,478 | - | 1,332,211,034 |
| İnvestisiya qiymətli kağızları | 123,165,020 | 42,352,192 | 4,458 | - | 165,521,670 |
| Əmlak və avadanlıq | 66,571,711 | - | - | - | 66,571,711 |
| İnvestisiya əmlakı | 7,027,246 | - | - | - | 7,027,246 |
| Qeyri-maddi aktivlər | 1,511,655 | - | - | - | 1,511,655 |
| Digər aktivlər | 58,631,019 | 444,587 | 190,718 | - | 59,266,324 |
| **Cəmi aktivlər** | **693,290,627** | **1,110,526,338** | **135,497,653** | **52,433,910** | **1,991,748,528** |
| **Öhdəliklər** | | | | | |
| Banklara və hökumət təşkilatlarına ödənilməli vəsaitlər | 255,239,850 | 120,915,846 | 1,398 | 539 | 376,157,633 |
| Müştəri hesabları | 397,340,844 | 786,925,770 | 134,674,443 | 16,093,729 | 1,335,034,786 |
| Cari mənfəət vergisi öhdəliyi | 4,159,131 | - | - | - | 4,159,131 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 2,387,920 | - | - | - | 2,387,920 |
| Digər öhdəliklər | 5,106,890 | 1,118,222 | 924,157 | 5 | 7,149,274 |
| **Cəmi öhdəliklər** | **664,234,635** | **908,959,838** | **135,599,998** | **16,094,273** | **1,724,888,744** |
| **Açıq valyuta mövqeyi** | **29,055,992** | **201,566,500** | **(102,345)** | **36,339,637** | |

## Valyuta riskinin həssaslığı

Aşağıdakı cədvəldə ABŞ dollarının manata nisbətdə 10% artmasına və ya azalmasına qarşı Qrupun həssaslığı öz əksini tapmışdır. Xarici valyuta riskinin əsas idarəedici heyətə hesabat edilməsi üçün istifadə edilən həssaslıq dərəcəsi 10%-dir və bu dərəcə xarici valyutanın mübadilə məzənnəsində mümkün dəyişikliklərlə bağlı rəhbərliyin qiymətləndirmələrini əks etdirir. Həssaslıq təhlilinə yalnız xarici valyuta ilə ifadə edilmiş pul vəsaitləri və xarici valyuta məzənnəsindəki 10% dəyişikliyi əks etdirmək üçün dövrün sonunda onların köçürülməsi üzrə düzəlişlər daxildir. Həssaslıq təhlilinə kənar kreditlər eləcə də Qrup daxilində xarici valyuta əməliyyatları üçün verilən kreditlər daxildir. Burada kreditlərin denominasiyası kreditorun və ya borcalanın valyutasından fərqli valyuta ilə aparılır.

| | **31 dekabr 2019** | | **31 dekabr 2018** | |
|---|---|---|---|---|
| | AZN / ABŞ dolları +10% | AZN / ABŞ dolları -10% | AZN / ABŞ dolları +10% | AZN / ABŞ dolları -10% |
| Mənfəət və ya zərərə təsiri | 26,574,198 | (26,574,198) | 20,156,650 | (20,156,650) |

| | **31 dekabr 2019** | | **31 dekabr 2018** | |
|---|---|---|---|---|
| | AZN / Avro +10% | AZN / Avro -10% | AZN / Avro +10% | AZN / Avro -10% |
| Mənfəət və ya zərərə təsiri | (750,594) | 750,594 | (10,235) | 10,235 |

Həssaslıq analizi ilə bağlı məhdudiyyətlər

Yuxarıdakı cədvəllər digər ehtimallarda dəyişikliklər olmadıqda əsas ehtimalların dəyişməsinin təsirini əks etdirir. Əslində cədvəldə qeyd edilən ehtimallarla digər faktorlar arasında qarşılıqlı əlaqə mövcuddur. Qeyd etmək lazımdır ki, cədvəldəki həssaslıq göstəriciləri xətti funksiya üzrə hesablanmır və valyuta məzənnəsinin daha çox və ya az dəyişməsinə qarşı həssaslığı cədvəldə göstərilən rəqəmlər əsasında birbaşa interpolyasiya və ekstrapolyasiya edilə bilməz.

Həssaslıq analizi Qrupun aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Qrupun maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələn, Qrupun maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçəndə Qrupun rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən sığortalayıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, ehtimallardakı dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər, aktivlər isə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda bazar qiyməti ilə dəyərləndiriləcək. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi xalis aktivlərin dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda qeyd edilən həssaslıq təhlilləri ilə bağlı digər məhdudiyyətlərə aşağıdakılar daxildir: yaxın dövrdə mümkün bazar dəyişiklikləri ilə bağlı hər hansı əminlik olmadan qabaqcadan verilən və yalnız Qrupun mövqeyini əks etdirən potensial riskin nümayiş etdirilməsi üçün hipotetik bazar dəyişikliklərindən istifadə və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət etməsi ehtimalı.

## 31. Hesabat tarixindən sonra baş vermiş hadisələr

13 fevral 2020-ci il tarixində Bankın səhmdarları adi səhmlər üzrə 7,260,600 AZN məbləğində dividendlər elan etmiş, bunlar da 21 fevral 2020-ci il tarixinə ödənilmişdir.

2020-ci ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı yeni tip koronavirusu ("COVID-19") qlobal bir pandemiya olaraq təsdiqlədi. Bu pandemiya nəticəsində ortaya çıxacaq qlobal yavaşlamanın miqyası və bunun Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı qeyri-müəyyənlik var. Azərbaycan hökuməti COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədi ilə əhəmiyyətli sosial və iqtisadi təsiri olan bir sıra tədbirlər tətbiq etmişdir. Rəhbərlik, COVID-19 virusunun yayılmasının Qrupun işinə, müştərilərinə və işçilərinə təsirini izləyir və işçilərini qorumaq və işin davamlılığını təmin etmək üçün hökumətin təqdim etdiyi rəsmi təlimatlara əməl edir. COVID-19 virusunun daha da yayılmasının iqtisadiyyata mənfi təsir göstərəcəyi gözlənilir, lakin bunun Qrupun işinə təsirini tam anlamaq hələ tezdir. Qrup koronavirusun (COVID-19) yayılmasını tənzimlənməyən balans tarixindən sonrakı hadisəsi hesab edir.